www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6 noyabr 2025-ci il Cümə axşamı № 202 (8812) Qiymәti 60 qəpik

**Xəbər**

## Ermənilər gəlir - İrəvandan anons, Bakıda hazırlıq

yazısı səh.4-də

# ŞOK: AVROPA AZƏRBAYCANA QARŞI TƏHLÜKƏNİ MALİYYƏLƏŞDİRİR

Güney Qafqazdakı "saatlı bomba" üçün sərmayə yatırılacaq; **politoloq:** "Bu, Qərbin riyakarlığıdır..."



yazısı səh.8-də

**Gündəm**

## Ermənistanın müəmmalı dəhliz-casus oyunu



İrəvan nə Zəngəzur dəhlizi, nə də kəşfiyyatçı missiyası ilə bağlı qərar verməyə tələsir

yazısı səh.5-də

## Fransa "daşları" yığmağa başladı - Bakıda mühüm görüş

yazısı səh.6-da

## Tehrandan qalmaqallı açıqlama - "cəmi iki həftəyə..."

yazısı səh.4-də

## "Turan ordusu" Azərbaycana toplaşır - yeni güc mərkəzi

yazısı səh.6-da

## ABŞ Paşinyandan üz döndərir? - Sensasion iddiaya Bakıdan baxış

yazısı səh.9-da

## "MTN işi"ndə ikinci soyğun: 560 min manat necə yoxa çıxıb?

yazısı səh.7-də

## Katolikosa sonuncu ultimatum - Ermənistan qarışsa...

yazısı səh.12-də

## Dünya miqrantlar üçün daraldılır, Azərbaycanda isə...

yazısı səh.13-də

## Məktəblərimizdə erməni dili tədris edilsinmi? - iki mövqe

yazısı səh.14-də

## Tərkibində dərman aşkarlandı... - energetik içkilər haqda bir daha

yazısı səh.15-də

## Ölkəni bürüyən "kitayski" maşınlar yanır - güvənsizlik, yoxsa...

Ekspertdən xəbərdarlıq: "Çin istehsalı avtomobillər köhnəldikcə təhlükəli hallar artacaq, çünki..."

yazısı səh.13-də



Hikmət Babaoğlu

## Deputatdan SOS: "Dilimiz üzərində böyük təzyiq var"

yazısı səh.11-də



## Ramiz Mehdiyevin Qəbələdə bir yox, üç villası varmış - yeni detallar

yazısı səh.3-də



*Rauf Arifoğlu:*

## "Qəzetlər yenidən doğulmalıdır"

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 202 (8812) 6 noyabr 2025



## Prezident bu qurumların rəhbərlərini qəbul etdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərindən ibarət nümayəndə heyətini qəbul edib.**

Musavat.com xəbər verir ki, nümayəndə heyətinə İslam İnkişaf Bankı qrupunun sədri Məhəmməd Süleyman əl-Casir, OPEC Fondunun prezidenti Əbdülhəmid əl-Xəlifə, Əbu-Dabi İnkişaf Fondunun Baş direktoru, Əbu-Dabi İxracat Ofisinin (ADEX) İcraiyyə Komitəsinin sədri Məhəmməd Saif əl-Süveydi, Səudiyyə İnkişaf Fondunun Baş icraçı direktoru Sultan Əbdülrəhman əl-Marşad və Küveyt Ərəb İqtisadi İnkişaf Fondunun Baş direktoru vəzifəsini icra edən Valed əl-Bahar daxildir.

Dövlət başçısı Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların xüsusilə indiki dövrdə - Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-tikinti işləri apardığı zaman ölkəmizdə sosial infrastrukturun inkişafı ilə bağlı layihələrə dəstək vermək niyyətini yüksək qiymətləndirib. Prezident İlham Əliyev vurğulayıb ki, bütün bunlar qonaqların təmsil etdikləri maliyyə institutları və ölkələrin xalqları ilə qardaşlıq, dostluq münasibətlərimizi genişləndirir.

Azərbaycanda əsas infrastruktur layihələrinin artıq tamamlandığını deyən dövlət başçısı su, nəqliyyat və digər sahələr üzrə dövlət proqramlarının icra edildiyini və gələcəkdə də müxtəlif istiqamətlər üzrə dövlət proqramlarının qəbul olunacağını vurğulayıb.

Görüşə görə nümayəndə heyətinin adından dövlət başçısına təşəkkür edən İslam İnkişaf Bankı qrupunun sədri Məhəmməd Süleyman əl-Casir işğaldan azad edilmiş Qarabağda, Şuşada olmaqdan məmnunluğunu bildirib, orada aparılan işlərin dərin təəssürat hissi doğurduğunu deyib.

Söhbət zamanı Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında uğurlu və səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulanıb, ölkəmizdə yaradılan əlverişli investisiya və biznes mühitinə toxunulub, əməkdaşlığın perspektivləri müzakirə edilib. Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında birgə layihələrin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.



## Ramil Usubov Rusiyaya getdi

**Azərbaycan Təhlükəsizlik Şurasının katibi Ramil Usubov Rusiyaya səfər edib. Modern.az xəbər verir ki, Usubov Müstəqil Dövlətlər Birliyi (MDB) üzv ölkələrinin təhlükəsizlik şuralarının katibləri ilə birlikdə Moskvadakı Aleksandr bağında yerləşən Naməlum Əsgərin məzarı yaxınlığındakı Əbədi Məşəlin önünə əklil və gül dəstələri qoyub.**

Mərasimdə Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu, onun Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan olan həmkarları, eləcə də Moldova və Türkmənistanın nümayəndələri, MDB və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) rəhbərliyi iştirak ediblər. Qeyd edək ki, Moskvada MDB üzv dövlətlərinin Təhlükəsizlik Şurası katiblərinin 13-cü iclası keçirilir.

## Yağış yağacaq, 2 dərəcə şaxta olacaq

**Bakıda və Abşeron yarımadasında noyabrın 6-da hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən bildirilib ki, 5-dən 6-na keçən gecə və səhər bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 9-13, gündüz 15-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi 768 mm civə sütunu, nisbi rütubət 70-80 % təşkil edəcək. Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi şərq rayonlarında qısamüddətli yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 6-11, gündüz 17-22, dağlarda gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 5-9 dərəcə isti olacaq.

# Yaşayış minimumu və ehtiyac meyarı artır



**Azərbaycanda yaşayış minimumu və ehtiyac meyarı artır.**

APA xəbər verir ki, bu, Milli Məclisin Əmək və sosial siyasət, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin iclasında müzakirəyə çıxarılan "Azərbaycan Respublikasında 2026-cı il üçün yaşayış minimumu haqqında" və "Azərbaycan Respublikasında 2026-cı il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihələrində əksini tapıb.

Beləliklə, gələn il üçün yaşayış minimumu və ehtiyac meyarı 15 manat artırılaraq 300 manat olacaq. Qeyd edək ki, 2025-ci ildə yaşayış minimumu və ehtiyac meyarı 285 manat olub.

## Hafiz Həsənova ittiham elan olundu

**QHT işi üzrə ittiham olunanlardan biri - "Hüquq və İnkişaf" İctimai Birliyinin rəhbəri Hafiz Həsənovun cinayət işi üzrə məhkəmə prosesi keçirilib. Teleqraf xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrlik etdiyi prosesdə prokuror ittiham aktını elan edib.**

İttihama görə, təqsirləndirilən Hafiz Həsənov rəhbərlik etdiyi QHT-də layihələr keçirmək adı ilə ABŞ-nin German Marşal fondundan ümumilikdə 415 mindən artıq pul vəsaitini qrant alaraq leqallaşdırıb. Hafiz Həsənov elan olunan ittihamla bağlı özünü təqsirli bilməyib. Növbəti məhkəmə prosesi dekabrın 3-nə təyin olunub.

Qeyd edək ki, Hafiz Həsənov Cinayət Məcəlləsinin 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, ağır nəticələrə səbəb olduqda) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham edilir. Onun barəsində Binəqədi Rayon Məhkəməsinin qərarı ilə ev dustaqlığı qətimkan tədbiri seçilib.

## Əhalinin istilik xidmətinə borcu 4 milyonu ötüb

**Azəristiliktəchizat" ASC-nin balansında olan 1000 kilometrdən artıq istilik xətləri mövsümə hazırlıq çərçivəsində dəfələrlə hidravlik təzyiqlə sınaqdan keçirilib. Axıntı və qəza riski müəyyən olunan xətlərdə cari və əsaslı təmir-bərpa işləri aparılıb.**

Bu barədə Modern.az-ın sorğusuna cavab olaraq "Azəristiliktəchizat" ASC-nin mətbuat katibi Elvin Basqallı məlumat verib.

Qurum rəsmisi bildirib ki, "Azəristiliktəchizat" ASC-nin balansında olan 550 qazanxana yoxlanılaraq tam hazır vəziyyətə gətirilib. Ümumilikdə 80 mindən çox avadanlıq saz vəziyyətə gətirilib.

Qeyd edilib ki, 2023-cü ildə əhali abonentləri üzrə ödəniş səviyyəsi 71,3 faiz, ümumi (əhali və qeyri-əhali) göstərici isə 86,8 faiz təşkil edib. 2024-cü ildə bu rəqəmlər müvafiq olaraq 77,6 və 89,3 faiz olub. 2025-ci ildə isə əhali üzrə ödəniş faizi 88,9, ümumi göstərici isə 88,7 faiz təşkil edib.

Hazırda ümumiyyətlə ödəniş etməyən abonentlərin borcu 4 milyon 444 min 523 manat təşkil edir. Qeyd olunur ki, borcların ən aşağı ödəniş faizi qaçqın və məcburi köçkünlər üçün nəzərdə tutulan qəsəbələrdə qeydə alınıb.

Əlavə olaraq qurumdan verilən məlumata görə, ASC tərəfindən əhali istehlakçı qrupu arasında borcların vaxtında ödənməsi üçün həm media vasitəsilə, həm fərdi qaydada, həm də binaların girişlərinə elanlar vurulmaqla xəbərdarlıqlar edilir.

"Hazırda ödənişdən imtina edən bəzi istehlakçılarla bağlı 31 məhkəmə işi icra mərhələsindədir. Bu işlər "Azəristiliktəchizat" ASC tərəfindən məhkəməyə təqdim olunub", - rəsmi məlumatda bildirilir.

Qeyd edək ki, Tarif (qiymət) Şurası bu ilin uyulunda əhaliyə göstərilən istilik təchizatı xidməti üçün yeni tarif müəyyənləşdirib.

Belə ki, əhali istehlakçı qrupuna göstərilən istilik təchizatı xidmətinin tarifi sayğac quraşdırılmadığı halda aylıq 1 m2 üçün 45 qəpik səviyyəsində təsdiq edilib. Sayğac quraşdırıldıqda isə 1 Qkal üçün (təqribən 40-50 m2 sahə üçün) 21 manat müəyyənləşdirilib. Azərbaycanda istilik sistemi hər il noyabrın 15-də işə salınır.

## Vəkil dərmandan zəhərlənərək ölüb

**Yevlaxda 37 yaşlı kişi dərmandan zəhərlənərək ölüb. Hadisə Yevlax şəhərinin ərazisində yerləşən "Həmdəm" hotelində baş verib. Hoteldə qalan 1988-ci il təvəllüdlü Elkin Zakir oğlu Kərimli dərmandan zəhərlənərək ölüb. Faktla bağlı araşdırma aparılır. Ölən şəxsin vəkil olduğu ("Fortiori" vəkil bürosunun üzvü) bildirilir.**

## "Qaçqınkom" subsidiya almayacaq

**2026-cı il üçün proqnozlaşdırılan dövlət subsidiyaları səkkiz funksional sahəni əhatə edəcək. Cari ildən fərqli olaraq, gələn il "Sosial müdafiə və sosial təminat" bölməsi üzrə subsidiya ayrılması planlaşdırılmır.**

Modern.az xəbər verir ki, bu barədə Hesablama Palatasının 2026-cı il dövlət büdcəsinin layihəsinə dair rəyində qeyd edilib.

Bu bölmə üzrə subsidiyanın nəzərdə tutulmaması Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi üçün "Dövlət müəssisələrinə subsidiyalar" paraqrafı üzrə vəsaitin proqnozlaşdırılmaması ilə bağlıdır.

## Doğuş və dəfn üçün vəsait artırılır

**Əvvəlki illərdə olduğu kimi, cari və növbəti illərdə də əvəzetmə əmsalı, yəni orta aylıq pensiya məbləğinin orta aylıq əməkhaqqı məbləğinə nisbəti müvafiq olaraq 49% və 50,4% olmaqla Beynəlxalq Əmək Təşkilatının sosial təminatın minimum normaları haqqında Konvensiyasına cavab verəcək.**

Modern.az xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsinin zərfi"nin müzakirəsində Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib.

Komitə sədri bildirib ki, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, hamiləliyə və doğuşa görə, 3 yaşına çatanadək uşaqlara qulluğa görə, dəfn müavinətləri üçün olan xərclər büdcədə artırılır: "Gələn il şəhid ailələri, qazilər, pensiya və müavinət alan bütün vətəndaşlarımızın sosial rifah halının yaxşılaşması üçün etibarlı təminat yaradılacaq".

YENİ MÜSAVAT
N 202 (8812) 6 noyabr 2025

# Ramiz Mehdiyevin Qəbələdə bir yox, üç villası varmış - ən dəbdəbəlisini bu nazir hədiyyə edibmiş

**Dövlətə xəyanətdə günahlandırılan Milli Elmlər Akademiyasının keçmiş prezidenti, Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin Qəbələ rayonunda 1 yox, 3 villası varmış. Ən dəbdəbəlisi, güllələkeçirməz şüşələri olan villanı isə "boz kardinal"a hədiyyə ediblər.**



Məlumata görə, bu mülk təkcə dəbdəbəsi ilə deyil, həm də təhlükəsizlik səviyyəsi və yaranma tarixçəsi ilə diqqət çəkir.

Mülkün yerləşdiyi torpaq 30 hektarlıq bir ərazidədir. Hasarla əhatələnmiş ərazidə yaşayış binası, əlavə qonaq evi, süni göl, istirahət zonaları, texniki binalar və mühafizə məntəqələri yerləşir. Yerli mənbələrin Musavat.com-a verdiyi məlumata görə, tikili xüsusi möhkəmləndirilmiş beton konstruksiyalarla inşa olunub və pəncərələri güllələkeçirməz şüşələrlə təchiz edilib. Ərazinin perimetri boyunca yüksək daş hasar, hərəkət sensorları və mühafizə kameraları quraşdırılıb. Əraziyə giriş-çıxış tam nəzarət altındadır.

Yerli mənbələr iddia edir ki, qala kimi imarət Qəbələdə abadlıq və quruculuq işlərinin geniş vüsət aldığı 2010-cu ildə inşa edilib. Bildirilir ki, həmin dövrdə fövqəladə hallar naziri Kəmaləddin Heydərovun şəxsi göstərişi ilə tikinti həyata keçirilib və sonradan Ramiz Mehdiyevə hədiyyə olunub. Bu məlumatlar rəsmi şəkildə təsdiqlənməsə də, bölgədəki sakinlər illərdir həmin versiyanın dolaşdığını bildirirlər. Onların sözlərinə görə, Mehdiyev villaya yalnız ildə bir dəfə, əsasən ailə tədbirləri zamanı gəlir. Sonuncu səfəri isə kürəkəni İlham Əliyevin övladının ad günü mərasiminə təsadüf edib. Həmin gün əraziyə onlarla avtomobil və mühafizə əməkdaşı cəlb olunub, giriş-çıxış müvəqqəti məhdudlaşdırılıb.

Mənbələrin iddiasına görə, Mehdiyevin Qəbələdə daha 2 bahalı villası da var. Hər iki mülk onun qızı Kamilə Əliyevanın adına rəsmiləşdirilib.

Ramiz Mehdiyevin Prezident Administrasiyasının rəhbəri olduğu dövrdə bir çox icra başçısına özünə ev və digər mülklər tikdirdiyi artıq yeni xəbər deyil.

Məsələn, Xaçmaz rayonunun Nabran istirahət zonasında 1 hektar ərazini əhatə edən 4 mərtəbəli villa 2012-ci ildə Xaçmazın keçmiş icra başçısı Şəmsəddin Xanbabayev tərəfindən tikilərək Mehdiyevə hədiyyə edilib.

Ramiz Mehdiyevə villa hədiyyə edən icra başçıları arasında Siyəzən Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Novruz Novruzov da yer alır. O, Şabran rayonuna rəhbərlik etdiyi dövrdə Kilvar kəndində meşəyə bitişik iki mülk tikdirərək Mehdiyevə hədiyyə edib.

Rayon mərkəzindən təxminən 30 km məsafədə yerləşən kənddə Ramiz Mehdiyevə məxsus daha bir villa da mövcuddur.

Bakının Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Gülağa İslamov da sabiq PA rəhbərinə villa hədiyyə edən məmurlar sırasında olub.

Şüvəlan bağları, "Gülçülük soxvozu" adlanan elit ərazidə inşa edilmiş 1000 kvadratmetrlik villa ötən il 1 milyon 300 min manata satışa çıxarılıb. Bu villa Mehdiyevin kürəkəni İlham Əliyevin adına sənədləşdirilib.

Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Balaşərif oğlu Alxasov Qusarın Çiləgir kəndində Mehdiyev ailəsi üçün dəbdəbəli malikanələr tikdirib.

Həmin malikanələrdən biri Qusar-Laza yolunun kənarında, meşənin içərisinə qədər uzanan 40 sotluq ərazidə inşa edilib. Üçmərtəbəli bu malikanə Ramiz Mehdiyevin kürəkəni İlham Əliyevə məxsusdur.

Malikanənin fotolarını isə 2020-ci ildə Mehdiyevin qızı Kamilə Əliyeva sosial şəbəkə hesabında paylaşıb.

Məlumata görə, hüquq-mühafizə orqanlarına artıq həmin şəxslərə bağlı tapşırıq verilib. Məlumata əsasən, Ramiz Mehdiyevə "hörmət" göstərərək ev, torpaq və ya pul hədiyyə edən və bunu könüllü şəkildə etiraf edən icra başçıları və məmurların məsuliyyətə cəlb olunmayacağı barədə onlara rəsmi xəbərdarlıq edilib. Əvəzində, bu barədə məlumatı gizlədən, yaxud Mehdiyevin tapşırığı ilə dövlət vəsaitlərini şəxsi məqsədlərə yönəldən şəxslərin cinayət məsuliyyətinə cəlb olunması istisna edilmir.

❑ **E.MƏMMƏDƏLİYEV, Musavat.com**

## Laqard Tramp haqqında: "Əzələ göstərir, sərt danışır"




**Avropa Mərkəzi Bankının (AMB) sədri Kristin Laqard ABŞ Prezidenti Donald Trampın tətbiq etdiyi yeni ticarət tariflərinin qlobal iqtisadiyyata təsirinin hələ tam şəkildə özünü göstərmədiyini bildirib.**

"Yeni Müsavat" xəbər verir ki, bu fikri o, "CBS News"a verdiyi müsahibədə səsləndirib.

Laqardın sözlərinə görə, hazırda ixracatçılar və idxalçılar azalan mənfəət marjası ilə barışmağa çalışsalar da, bu vəziyyət uzun çəkməyəcək: -"İxracatçı və idxalçının daşıdığı bu yük - mənfəət marjasının azalması - bir nöqtədə dözülməz olacaq. Onlar daha az qazanmaqla razılaşmaq istəmədikdə bu yük istehlakçının çiyninə düşəcək. Məsələ, sadəcə, zamandır".

AMB rəhbəri bildirib ki, tariflər dünya iqtisadiyyatını dəyişdirən iki əsas amildən biridir, ikinci mühüm amil isə texnoloji transformasiyadır: "Bu transformasiya bir neçə səbəbdən qaynaqlanır. Əvvəla, tariflər beynəlxalq ticarət xəritəsini dəyişib, yeni iqtisadi ittifaqlar yaradıb və dövlətlərin bir-biri ilə ticarət münasibətlərinə yeni forma verib. İkinci mühüm dəyişiklik isə süni intellektin təsiridir - məlumatların idarə edilməsindən tutmuş sosial əlaqələrə qədər hər sahədə bu təsiri görürük".

**Kristin Laqard həmçinin ABŞ və Çin arasında gedən ticarət müharibəsini şərh edərək onun müəyyən dərəcədə "poza teatrı" xarakteri daşıdığını deyib:** "Bu, hər iki tərəfin danışıqlarda istifadə etdiyi tipik taktikadır. Qol əzələlərini göstərmək, sərt danışmaq - bu, adi haldır. Amma nəticədə istər-istəməz hər iki tərəf danışıqlar masasına oturacaq, çünki bu, hər iki iqtisadiyyatın maraqlarına uyğundur".

❑ **"Yeni Müsavat"**



## Bakıdan Ermənistana buğda qatarı və son "ev tapşırığı"

**Ermənistan üçün nəzərdə tutulan buğda konteynerləri böyük fasilədən sonra ilk dəfə Azərbaycan üzərindən keçərək son ünvana yol alıb. Qonşu ölkədəki xoşniyyətli sakinlər hadisədən sevinc və minnətdarlıq hissi keçirsə də, bəd niyyətlilər az qala, yasa batıb olayda yenə "siyasi çalar" axtarmaqdadırlar.**

Əfsus ki, ikincilər erməni cəmiyyətində mühüm bir qisim, hətta bəlkə də əksəriyyət təşkil edir. Halbuki söhbət yalnızca Azərbaycanın iki xalq arasında qarşılıqlı etimadı gücləndirməyə yönəlik xoş məramından gedir. Qonşu ölkədə hakimiyyətdə kim olur-olsun, erməni tərəfi buna sevinməlidir ki, ölkənin ərzaq təhlükəsizliyi çoxşaxəli logistika hesabına möhkəmlənəcək. Rusiyanın inhisarçılığı tədricən aradan qalxacaq...

O səbəbə qətiyyən təəccüblü deyil ki, Nikol Paşinyan hökumətinin Bakı və Ankara ilə barışıq siyasətindən ən çox təlaş keçirən məhz Rusiyaya bağlı radikal qüvvələr, "5-ci kolon"dur. Aydındır ki, Ermənistan Azərbaycan və Türkiyə ilə əlaqələri normallaşdıran kimi bu qüvvələrin "kitabı" həmişəlik bağlanacaq. Rusiya isə bu ölkəni əvvəlki kimi rahatca qarışdıra, istədiyi vaxt öz marionetini gətirib hakimiyyətdə oturda bilməyəcək. Hərçənd cəhdlər davam edəcək. Neçə ki, çevriliş cəhdinə görə keşişlərə kimi, neçə-neçə saxlanılan var.

Moskva üçün Ermənistanda 1999-cu ilin 27 oktyabr hadisələrinə (parlamentin güllələbaran edilməsi) bənzər qətliamlar törətmək də asan olmayacaq. Daha bir səbəbə: parlamentin spikeri, onun müavini və daha 7 deputatın öldürülməsi ilə yekunlaşana həmin terror hadisəsi Bakı və İrəvan arasında Qarabağla bağlı gedən sülh prosesindən Moskvanın narazılığı ilə xeyli dərəcədə əlaqəli idisə, artıq Dağlıq Qarabağ konflikti tarixdə qalıb, hətta sülh müqaviləsi paraflanıb. Paşinyan isə ermənilərin Qarabağa dönüşü məsələsinin daha gündəmdə olmadığını açıq şəkildə bəyan və izah edib...

Hazırda Ermənistandakı əhalinin xilası və qurtuluşu üçün tək bir yol görünür - başına gələnlərdən düzgün dərs alıb və hamılıqla daşları ətəyindən töküb iki əsas qonşu ilə düşmənçiliyə son vermək. Məgər 35-37 illik itirilmiş zaman kəsiyi onu nə Rusiyanın, nə də uzaq Fransa və Avropanın ağ günə çıxarmayacağına yəqinlik hasil eləmək üçün yetərli olmadı? Daha nə(lər) baş verməlidir?

Bu qəbil suallar çox, zaman isə az. Əsas seçim də bəlli: yaxınlaşan kritik parlament seçkiləri və referendumla bağlı erməni elektoratı son dərəcə diqqətli olmalı, avantüristlərin və şarlatan-revanşistlərin, Rusiyanın emissarlarının felinə gedib toruna düşməməlidir. Yoxsa erməni xalqı sonuncu tarixi fürsəti də qaçıra, budəfəki səhvin bədəlini qaldıra bilməyəcək. Bunun yaşanmaması naminə Azərbaycanla sülh müqaviləsinin imzalanması üçün cəmiyyət Paşinyan hökumətinə gərəkən dəstəyi verməli, onu Putin Rusiyası ilə baş-başa buraxmamalıdır...

"Emənistan regional əməkdaşlıq və platformalarla maraqlanır".

Bunu bu gün Ermənistanın xarici işlər naziri Ararat Mirzəyan bildirib.

Nazir Ermənistanın yaxın qonşuları ilə münasibətlərin xarici siyasətdə xüsusi yer tutduğunu, bunlardan ikisi ilə əla münasibətlərin olduğunu, digər ikisi - Azərbaycan və Türkiyə ilə isə inkişaf etdiyini vurğulayıb. "Biz həm ikitərəfli münasibətlərdə, həm də regional çoxtərəfli əməkdaşlıqda maraqlıyıq. Biz əməkdaşlıq etməyə məhkumuq", - XİN başçısı qeyd edib.

Əlbəttə, qulağa xoş gələn sözlərdir. Yaxşı deyiblər, "avazı yaxşı gəlir, əgər oxuduğu Quran" olsa.

Məsələ də ondadır ki, sözdən işə keçmək vaxtı çoxdan çatıb. Azərbaycan və Türkiyə ilə barışıq üçün yeganə şərt bəllidir: konstitusiyanı beynəlxalq hüquqa uyğunlaşdırıb sülh müqaviləsinin yolunu açmaq. Bu, 2026-cı ildə Mirzəyan və hökuməti daxil, ümumən erməni xalqı üçün 1 nömrəli "ev tapşırığı" olacaq...

❑ **Analitik xidmət**

Yeni MÜSAVAT
N 202 (8812) 6 noyabr 2025

# Ermənilər gəlir - İrəvandan anons, Bakıda hazırlıq

**Cənubi Qafqazda sülh danışıqları yeni mərhələyə qədəm qoyur. İrəvan və Bakı xəttində intensiv diplomatik və ictimai təmaslar diqqət mərkəzinə çevrilib. Son həftələrdə tərəflər təkcə hökumətlərarası səviyyədə deyil, həm də ictimai platformalarda bir-birinə yaxınlaşmaq üçün addımlar atırlar.**

Ermənistan Milli Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Brüsseldə verdiyi açıqlamada bildirib ki, avqustun 8-dən etibarən İrəvan və Bakı "indiyədək əldə edilmiş tərəqqinin möhkəmləndirilməsi və dialoqun dərinləşdirilməsi üçün məqsədyönlü səylər göstərir".

Qriqoryan konkret nümunələr də çəkib: "Oktyabrın 21-22-də ilk dəfə olaraq Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrindən ibarət nümayəndə heyəti Ermənistana səfər edib və ikitərəfli dəyirmi masada iştirak edib. Yaxın vaxtlarda Ermənistan vətəndaş cəmiyyətinin də Azərbaycana səfəri gözlənilir".

Ermənistan Baş naziri Administrasiyasının rəhbəri Araik Arutyunyan noyabrın 4-də İrəvanda keçirilən "Orbeli: Sülh və çoxtərəfli əməkdaşlığın qurulması" forumunda bildirib ki, tədbirdə Azərbaycan və Türkiyədən vətəndaş cəmiyyəti və media nümayəndələrinin iştirakı regionda yeni reallığın formalaşdığını göstərir.

Forumun ardından Karnegi Berlin Mərkəzinin elmi işçisi Zaur Şiriyev də jurnalistlərin suallarını cavablandırarkən Azərbaycanın gözləntilərini açıqlayıb: "Azərbaycan ümid edir ki, ABŞ ölkənin əsas ərazisi ilə Naxçıvan arasında maneəsiz keçidin təşkilinə yardım göstərmək məsuliyyətini öz üzərinə götürəcək".

Erməni nümayəndələrin Bakıya səfəri həm rəsmi, həm də ictimai səviyyədə maraq doğurur. Məsələ təkcə "təmas"dan ibarət deyil - bu, iki xalq arasında uzun illər davam edən düşmənçiliyin fonunda inam testidir. Bakı yaxın günlərdə İrəvandan gələcək nümayəndələri qəbul etməyə hazırlaşır. Bu, son iki əsrlik qarşıdurma tarixində nadir bir epizod olacaq - "ermənilər Bakıya gəlir" ifadəsi ilk dəfə olaraq təkcə xəbər yox, həm də siyasi sınaq mənası daşıyır.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında bildirib ki, dialoqlar öz faydasını verəcək, lakin əsas siyasi qərarlardır:** "Avqustun 8-dəVaşinqtonda baş tutan görüşün davamı kimi sülh quruculuğunun inkişafı, əlbəttə, vacibdir. Amma Ermənistandan başqa addımlar da tələb olunur. İlk olaraq konstitusiya dəyişməlidir. Zəngəzur dəhlizi ilə bağlı nəhayət ki, tikintiyə başlamalıdırlar. Əsas siyasi qərarların reallaşması vacibdir. Amma bunlarla paralel olaraq vətəndaş cəmiyyəti nümayəndələrinin dialoqu da faydalıdır. Bu görüşlər ağır keçə bilər. Çünki 100 il ərzində o qədər qətliamlar, savaşlar oldu, ermənilər bizə arxadan o qədər zərbələr vurdular ki, əlbəttə, bunlar asanlıqla unudulmayacaq. Bütün bunlara baxmayaraq bu tədbirlərin də öz faydası olacaq.

İşğal dövründə ermənilərlə görüşdə mən də iştirak etmişdim. Həmin görüşlərdə hansısa nəticə əldə etmək mümkün olmadı, çünki işğal hələ davam edirdi. Hətta ermənilərlə Finlandiyanın bir adasında görüşüb fikir mübadiləsi aparmışdıq. Lakin ermənilər işğaldan vaz keçmirdilər. İndi isə vəziyyət dəyişib və siyasi qərarlar verilib. Bundan sonra dialoqun faydası olacaq. Bir şərtlə ki, bu görüşlərdə revanşist qüvvələr iştirak etməsinlər. Daşnaklarla heç bir dialoq fayda verməz".



**Politoloq Qulamhüseyn Əlibəylinin fikrincə, bu cür görüşlər Azərbaycan və Ermənistan cəmiyyətləri arasında bir etimad yaratmağa xidmət edir:** "Dövlətlər müəyyən məsələlər barədə razılığa gəliblər. Hətta sülh müqaviləsi imzalanır. Lakin hər iki cəmiyyətdə bir-birinə qarşı nifrət var. Erməni hücumları nəticəsində yaxınlarını itirmiş azərbaycanlıların qəzəbi hələ də davam edir. Bunu aradan qaldırmaq üçün uzunmüddətli fəaliyyət lazımdır. Buna görə də cəmiyyət üzvlərinin bir-biri ilə təmasları olmalıdır.

Bundan əvvəl də xalq diplomatiyası adı altında görüşlər olub, lakin onlar uğurla nəticələnməyib. Çünki Ermənistan hakimiyyəti həmin vaxt münasibətlərin normallaşmasını istəmirdi. İndi isə sülh müqaviləsinin imzalanması ərəfəsindəyik. Ona görə də hər iki cəmiyyət arasında qarşılıqlı münasibət yaratmaq lazımdır. Elə bir mühit yaradılmalıdır ki, həm ermənilər, həm də azərbaycanlılar bir-birilərini qəbul etsinlər. Lakin nəzərə almaq lazımdır ki, erməni xisləti bir çox hallarda müəyyən problemlər yaratmağa qadirdir".

**Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı deyir ki, bu cür təmaslar barışıq yolunda ilk addımlardır:** "Gələcəkdə etibarlı sülh müqaviləsinin imzalanmasını istəyiriksə, təmaslar olmalıdır. Azərbaycan öz ərazisindən Ermənistana yük daşınması üçün istifadə edilməsinə icazə verdi. Sonsuzadək düşmən olmaq mümkün deyil. Nə ermənilər, nə də azərbaycanlılar regiondan çıxıb getməyəcəklər. Bu görüşlər düşmənçilik ritorikasını azaldır. Getdikcə revanşistlərin mövqeyi zəifləyir və qarşılıqlı etimad gözlənilir. Bu baxımdan vətəndaş cəmiyyəti nümayəndələrinin görüşləri ancaq fayda gətirəcək

1992-ci ildə biz Ermənistan yazıçıları ilə Qazaxda görüşmüşdük. Onda da bildirmişdik ki, bu müharibə heç bir xalqa xeyir gətirməyəcək".

**Şahanə RƏHİMLİ,**
**"Yeni Müsavat"**

# Tehrandan qalmaqallı açıqlama - "cəmi iki həftəyə..."

## İranın qarşısını bu amil alırmış

**"Tehran iki həftə ərzində nüvə silahı hazırlaya bilər, lakin İranın ali dini lideri Əli Xamneyinin fətvası bunu qadağan edir".**

Armiya.az-ın İranın "Xəbər Furi" qəzetinə istinadən verdiyi məlumata görə, bunu ali liderin müşaviri Ayətullah Cavad Laricani bildirib.

Laricani eyni zamanda müdafiə və texnoloji imkanların inkişaf etdirilməsinin İranın strateji prioriteti olaraq qaldığını bildirib. "Müharibə başlayarsa, bu, barbarlıq olmayacaq, hər iki tərəfin öz həddi var. Ali ruhaniliyin nüvə silahını yaratmağı qadağan edən fətvasının bir çox əsası və şiə fiqhində uzun bir tarixi var... Ölkə iki həftədən az müddətdə atom bombası əldə edə bilər, amma biz dinimizə sadiqik", - deyə o əlavə edib.

Doğrudanmı İran iki həftəyə nüvə silahı yaratmaq iqtidarındadır və buna nüvə silahını haram sayan Xamneyi mane olur?

**Milli Məclisin deputatı Ceyhun Məmmədov** "Yeni Müsavat"a bildirdi ki, ümumi prosesə baxanda İranın nüvə silahına sahiblənmək istiqamətində hazırlıqlarının **uzun illərdir davam etdiyini görürük:** "İran nüvə silahı ilə bağlı xeyli vaxtdır araşdırmalar, tədqiqatlar həyata keçirir. Bu sahədə qonşu dövlət xeyli irəliyə gedib. İranın bu sahədə çoxlu sayda mütəxəssisləri var. Onlar uzun müddətdir bu sahədə işləyirlər və püxtələşirlər. Nəzərə alsaq ki, nüvə silahı kütləvi qırğın silahı sayıldığı üçün bu məsələyə dini baxımdan yanaşma birmənalı deyil. Dinimiz bu məsələyə fərqli yöndən baxır. İranın nüvə silahına malik olması məsələsinə gəldikdə isə bu fikir ilk dəfə deyil səsləndirilir. Ayrı-ayrı şəxslər, mütəxəssislər tərəfindən İranın artıq bu imkana malik olduğu söylənilir. Düşünürəm ki, bu məsələ ciddi qəbul edilməlidir. İranın nüvə silahına malik olması real fakt kimi qiymətləndirilə və nəzərdən keçirilə bilər. Bu cür açıqlamaların ciddi səbəbləri var və yəqin ki, boşuna verilmiş açıqlama deyil".

**Politoloq Oqtay Qasımov bildirdi ki, İranın ali liderinin müşaviri Ayətullah Cavad Laricaninin bəyanatına diqqət etdikdə orada iki məqam xüsusi qeyd olunmalıdır:** "Birincisi, Laricani qeyd edir ki, onların iki həftə ərzində nüvə silahı hazırlama imkanları var, amma Əli Xamneyinin fitvası bunu qadağan edir və bu prosesi dini motivlərlə əsaslandırmağa çalışır. Nəzərə alaq ki, İranın nüvə proqramı ilə bağlı olduqca müxtəlif iddialar var və bu iddialardan hansının dəqiq olduğunu konkret söyləmək çətindir. Beynəlxalq Atom Enerjisi Agentliyinin 6 ay öncə verdiyi məlumatlarda da qeyd olunurdu ki, İran uranın zənginləşdirilməsini 60 faizə qədər yüksəldib, bu da nüvə silahı hazırlama müddətini xeyli azalda bilər. Bu iddialara diqqət etdiyimizdə İranın bu həddə kifayət qədər yaxınlaşdığını söyləmək olar. Amma bu iddiaların nə qədər dəqiq məlumatlara əsaslandığını söyləmək kifayət qədər çətindir və bunu təsdiq edəcək sübutlar da yoxdur. Bundan başqa, bu ilin iyununda baş verən İsrail-İran 12 günlük savaşı zamanı İsrailin və ABŞ-nin İrana vurduğu zərbələr İranın nüvə proqramına müəyyən zərər verib. Hətta prezident Donald Tramp bu iddiada oldu ki, İranın nüvə proqramı ciddi zərər görüb. Tehran əvvəl bunu boynuna almasa da sonradan etiraf etməli oldu. Yəni bu iddiaların da nə qədər dəqiq olduğunu söyləmək çətindir. Amma görünən və bilinən odur ki, İranın əlində təxminən yarım tona yaxın 60 faizə qədər zənginləşdirilmiş uran var və onun nüvə silahı yaratma potensialı kifayət qədər çoxdur".



**Politoloq düşünür ki, Laricaninin açıqlamasının ikinci hissəsi xüsusilə diqqətçəkicidir:** "O bəyan edir ki, dini liderin fitvası və şiə məzhəbində bu cür silahın haram buyrulması İranın nüvə silahına sahiblənməsinin qarşısını alır. Hesab edirəm ki, bu açıqlama İrana olan təzyiqləri azaltmaq üçün söylənən bəyanatdır. Nəzərə alsaq ki, İranın nüvə proqramı Rusiya və Çin tərəfindən dəstəklənir, amma eyni zamanda İranın bu silaha malik olması ilə bağlı bu dövlətlərin konkret mövqeyinə rast gəlmirik, mümkün variantlardan biri o ola bilər ki, əgər Çin İranın nüvə silahı yaratmaq istəklərinə ən azı mane olmazsa, o zaman İran bu istiqamətdə müəyyən ciddi addımlar ata bilər. Lakin İran da yaxşı başa düşür ki, belə bir addımın atılması və həqiqətlərin ortaya çıxması onun üçün kifayət qədər ciddi problemlər yaradar. Ən azı Donald Trampın hakimiyyətdə olduğu dönəmdə Tehran bu risklə qarşı-qarşıya qalmaq istəməyəcək. Digər tərəfdən, nəzərə alsaq ki, İranın nüvə silahı əldə etməsi İsrailin də qırmızı cizgiləridir və İsrail də bunun qarşısının alınması üçün addımlar atmağa çalışacaq və ABŞ da buna istər-istəməz dəstək vermək məcburiyyətində qalacaq, deməli, ali liderin müşavirinin açıqlamasında həm müəyyən bir təhdid var, həm də mülayimlik nümayiş etdirmə var. Bununla İran demək istəyir ki, nüvə silahını qısa müddətdə yaratmaq potensialımız var, lakin bunu etmək niyyətində deyilik. Səbəbini isə din amili ilə bağlayır".

**Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 202 (8812) 6 noyabr 2025

# Ermənistanın dəhliz və casus oyunu - müəmma

## İrəvan nə Zəngəzur, nə də kəşfiyyatçı missiyası ilə bağlı qərar verməyə tələsir; **Elxan Şahinoğlu:** “Onlar evə göndərilməlidir, uzatmağın mənası yoxdur”



**Ermənistanın Baş naziri Nikol Paşinyan son günlərdə üçüncü dəfə Azərbaycana minnətdarlıq mesajı ünvanlayıb. O, “Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür etmək istəyirəm”, deyərək Azərbaycanın öz ərazisi vasitəsilə Ermənistana yükdaşımalarına məhdudiyyətləri aradan qaldırmaq qərarını alqışlayıb.**

“Bu qərar əvvəlcədən bu miqyasda müzakirə olunmamışdı. Biz sadəcə bilirdik ki, müəyyən razılıq var, bir qatar gələcək. Qənaət bu idi ki, söhbət yalnız bir qatarın gəlişindən gedir, amma Azərbaycan Prezidentinin səsləndirdiyi bəyanat bizim üçün gözlənilməz oldu”, - Paşinyan əlavə edib. Baş nazirin sözlərinə görə, bu, Azərbaycandan səslənən gözlənilməz, amma çox müsbət bəyanatlardan biridir. Qeyd edib ki, bu addım balansın dəyişməsi üçün çox mühüm imkanların mövcud olduğunu göstərir.

Məlum olduğu kimi, Azərbaycan Prezidentinin Ermənistana daşınan taxılın ölkəmiz ərazisindən aparılmasına izn verməsindən sonra artıq ilk taxılla dolu yük qatarı Azərbaycan ərazisindən Gürcüstana keçib. “Blokadanın qaldırılmasının bir komponenti artıq baş verib. Hazırda Rusiya və Qazaxıstandan çıxan yüklər ya Ermənistan sərhədini keçib, ya da Ermənistan sərhədinə yaxınlaşır. Yüklər Azərbaycan dəmir yollarından Gürcüstana keçir, daha sonra Ermənistana daxil olur”. Bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan parlamentdə çıxışı zamanı açıqlayıb.

Göründüyü kimi, Azərbaycan tərəf növbəti dəfə humanizm nümayiş etdirməklə Ermənistanı fakt qarşısında qoyub. Rəsmi İrəvan isə üzərinə düşən öhdəliklərə əməl etməyə tələsmir. Düzdür, Paşinyan davamlı şəkildə sülhməramlı mövqe sərgiləyir. “Mənim tərəfimdən Türkiyə Prezidentinin Ermənistana səfərinin mümkünlüyünü (2026-cı ilin mayında) şərh etmək düzgün olmazdı. Yalnız onu deyim ki, mən onu rəsmi dəvət etmişəm”, - baş nazir Nikol Paşinyan bildirib.

Paşinyan Orbeli Forumunda çıxış edərkən ümidlə bildirib ki, bu dəvət qəbul olunacaq. Paşinyan Ermənistan və Azərbaycan arasında sülhün bərqərar olduğunu bir daha təsdiqləyib. Baş nazirin sözlərinə görə, bu gün Ermənistan və Azərbaycan arasında uğur hekayələri var ki, bunun başlanğıcı 2024-cü ildə iki ölkə arasında başlanmış sərhədin demarkasiyası prosesi olub.

“Bu, Ermənistan və Azərbaycan arasında dövlətlərarası münasibətlərin qurulmasında dönüş nöqtəsidir ki, iki ölkə 1991-ci il Alma-Ata Bəyannaməsi əsasında bir-birinin ərazi bütövlüyünü tanıdığını qeyd edir”, - baş nazir qeyd edib.

Ermənistanın baş nazirinin sözlərinə görə, ən böyük uğur hekayəsi 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilən və Ermənistanla Azərbaycan arasında sülhün və dövlətlərarası münasibətlərin qurulmasına dair bəyannamənin qəbulu və sazişin paraflanması ilə nəticələnən sülh sammiti olub. “Beləliklə, Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında sülh yarandı”, - Paşinyan deyib.

Ermənistanın baş naziri Nikol Paşinyan 2024-cü ildə Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası prosesinin başlanmasını “uğur tarixçəsi” kimi qiymətləndirib. Bu barədə “Novosi Armeniya” nəşri yazıb. “Tapşırığıma əsasən, Ermənistanın dövlət qurumları vətəndaş cəmiyyəti nümayəndələri, ziyalılar, siyasi və partiya xadimləri, bəzən də diaspor nümayəndələri üçün Tavuşun Kiranç hissəsində və ona bitişik sərhəd ərazilərinə səfərlər təşkil edir. Məqsəd - bizim "sülh gündəliyi" dedikdə nəyi nəzərdə tutduğumuzu yerində göstərməkdir”, - deyə Paşinyan bildirib.

Amma Paşinyan nə Zəngəzur dəhlizinin tikintisi ilə bağlı “daşı daş üstə qoyub”, nə də Avropa İttifaqının müşahidəçilərinin çıxarılmasına qərar verməyə tələsmir. Hətta bildirir ki, müşahidəçilər Azərbaycanla sülh sazişi imzalanana qədər Ermənistanda qalacaqlar. Avropa İttifaqının missiyasının kəşfiyyatçılardan ibarət olduğu barədə dövlət başçımız da mövqe bildirib və onların regionda qalmasını sülhə əngəl hesab edib. Bütün bunlardan sonra da Paşinyanın dirənişi əcaib görünür. Sözügedən mənzərə kifayət qədər ziddiyyətləri özündə cəmləyən Paşinyanın sülhlə bağlı səmimiyyətinə şübhələr yaradır. Paşinyan son açıqlamaları ilə sülh oyunu oynayır, yoxsa sülhə imza atmağa qərarlıdır? Ekspertlərin mövzu ilə bağlı şərhləri maraqlıdır.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** “Yeni Müsavat”a bildirdi ki, Paşinyan ermənilərin türklərlə və azərbaycanlılarla düşmənçiliyinə son qoymaq istəyir: “Paşinyan Ermənistanın Türkiyə və Azərbaycanla normal münasibətlər qurmasına çalışır. Ona görə sülhün alternativinin olmadığını dönə-dönə vurğulayır. Biz də eyni fikirdəyik, ancaq sülhü davamlı etmək üçün Paşinyanın zəruri addımlar atmasına ehtiyac var. Bunlardan biri Zəngəzur dəhlizinin tikintisinə başlamaqdır. Ermənistanın gələnilki büdcəsində dəmir yolunun tikintisinə maliyyə ayrılması barədə bənd yoxdur. Görünür, Paşinyan dəmir yolunun tikintisini bütünlüklə ABŞ-nin maliyyələşdirəcəyinə ümidlidir. Əgər belədirsə, İrəvan Vaşinqtonla maliyyələşmə məsələsini sürətləndirməlidir”.

**E.Şahinoğlu qeyd etdi ki, həllini gözləyən digər məsələ Azərbaycanla sərhəddə yerləşdirilən avropalı müşahidəçilərin geri dönmələrini təmin etməkdir:** “Paşinyan bir tərəfdən deyir ki, Azərbaycanla sülh təmin olunub, il yarımdır sərhəddə tam sakitlikdir, digər tərəfdən fəaliyyətləri anlaşılmayan avropalı müşahidəçiləri evlərinə göndərməyə tələsmir. Bunu uzatmağın mənası yoxdur”.

**Analitik vurğuladı ki, Paşinyan ermənilərin Qarabağa qayıtmasının əleyhinə olduğunu bir daha söyləyib**: “Onun sözlərinə görə, ermənilərin Qarabağa qayıdışı tələbi Azərbaycanla münasibətləri gərginləşdirə bilər. Bu doğrudur. Çünki Paşinyana müxalif olan qüvvələr ermənilərin Qarabağa qayıtmasını tələb edərkən, həmin ermənilərin Azərbaycan qanunları ilə yaşamalarının əleyhinədirlər. Buna isə Azərbaycan imkan verməyəcək. Digər tərəfdən, Qarabağ erməniləri kütləvi şəkildə Ermənistan vətəndaşlığını əldə edirlər. Qarabağ erməniləri artıq Ermənistan vətəndaşıdırlar. Ermənistan pasportu alan ermənilər bundan sonra Qarabağda yaşaya bilməzlər”.

**E.Şahinoğlu digər vacib məqama da diqqət çəkdi:** “Azərbaycan Prezidenti İlham Əliyev azərbaycanlıların Ermənistana (Qərbi Zəngəzura) qayıtmasının tərəfdarıdır. Ancaq İlham Əlievin yanaşmasının erməni radikalların yanaşmasından fərqi var. Azərbaycanlılar Ermənistana qayıdarlarsa, onlar Ermənistan qanunlarına hörmət edəcək və bu ölkənin vətəndaşı olacaqlar”.

**Siyasi şərhçi Məhəmməd Əsədullazadə isə bildirdi ki, Paşinyan reallıqları başa düşür və qəbul edir:** “8 avqustda paraflanmış və imzalanmış sənədlər Ermənistan hakimiyyətinin geri dönməz yola çıxdığıdır. Əgər geri dönərsə, bu ölkənin faciəsidir. Paşinyan Avropa Birliyinin yarımhərbi müşahidə missiyasını Rusiyaya görə saxlayıb. Düşünürəm ki, onların missiyası dəyişib. Paşinyan Qarabağsız Ermənistan şüarı ilə seçkiyə gedir. Belə olan təqdirdə sülh oyunu oynaması mümkün deyil. Ona görə də proseslər onu deməyə əsas verir ki, Ermənistan hakimiyyəti yekun sülh müqaviləsinə imza atacaq. Bunun üçün də ilk növbədə konstitusiyadan Azərbaycana qarşı ərazi iddialarını çıxartmalıdır. Bunun üçün referendum olacaq. Paşinyan hələ ki seçkiyə gedir. Bəzən erməni cəmiyyətinin qulağına xoş gəlmək üçün bəzi fikirlər deyə bilər. Amma bu, dövlətlərarası de-fakto sülh prosesinə zərbə vurmayacaq. Dövlətlər arasında siyasi olaraq sülh var. Xalqlar arasında da sülh quruculuğu olmalıdır. Bunu Paşinyan da qeyd edir”.

**M.Əsədullazadə hesab edir ki, Paşinyan sülh və müharibə dilleması qarşısında dayanmayıb:** “O, konkret olaraq sülh gündəliyini təbliğ edir. Hazırda Ermənistanın Hindistan və ABŞ-dan yeni silahlar alacağı deyilir. Ermənistan hakimiyyəti Rusiyadan silah alışını dayandırır. Amma Ermənistan bu silahları almalıdır. Alırsa, Azərbaycan bunun beş qatını alacaq. Bundan sonra Ermənistanın müharibə etmək qabiliyyəti yoxdur. Şəxsi heyət baxımından vəziyyətləri yaxşı deyil. Azərbaycan bilsə ki, Paşinyan sülh oyunu oynayır, Ermənistana tranzit yük daşımalarına maneəni aradan qaldırmazdı”.

❑ **E.PAŞASOY, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 202 (8812) 6 noyabr 2025

# Fransa “daşları” yığmağa başladı - Bakıda mühüm görüş

## **Politoloq:** “Paris də artıq anlayıb ki, Azərbaycanın iştirakı olmadan Fransanın regionla bağlı maraqlarını təmin etmək mümkün deyil”

**Fransa diplomatları Bakıda danışıqlar aparıblar. Görüş zamanı ikitərəfli münasibətlər və regional məsələlər müzakirə edilib. Bu barədə Fransanın Azərbaycandakı səfiri Sofi Laqut sosial media platforması X-də yazıb.**

Diplomatın sözlərinə görə, Azərbaycan paytaxtında hər iki ölkənin diplomatları arasında hərtərəfli və məhsuldar müzakirələr aparılıb. Səfir yazıb: “Fransa Prezidentinin Kontinental Avropa üzrə diplomatik müşaviri Bertrand Buxvalter və Fransa Xarici İşlər Nazirliyinin Kontinental Avropa Departamentinin direktoru Bris Rokfey Azərbaycan Prezidenti Administrasiyasının Xarici Siyasət şöbəsinin müdiri, Prezident köməkçisi Hikmət Hacıyev və Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovla ikitərəfli münasibətlər və regional məsələləri müzakirə etmək üçün Azərbaycana gəliblər”.

Xatırladaq ki, ötən ay Prezident İlham Əliyev Fransanın ölkəmizə yeni təyin olunan səfiri Sofi Laqutun etimadnaməsini qəbul edən zaman Kopenhagendə Fransa Prezidenti Emmanuel Makronla görüşünü xatırladaraq, həmin görüşün nəticəsində ölkələr arasında anlaşılmazlığa səbəb olan məsələlərin keçmişdə qaldığını söyləmişdi. İkitərəfli gündəlikdə yeni dövrün başladığını vurğulayan dövlət başçısı, ilk növbədə insanlararası və biznes nümayəndələrinin təmasların, mədəni, humanitar sahələrdə əməkdaşlığın bərpasının və inkişaf etdirilməsinin önəminə toxunmuşdu.

Bəs əlaqələrin tam qaydaya düşməsindən nə vaxt danışmaq mümkün olacaq? Rəsmi Paris hansı addımları atmalıdır?

**Politoloq Yusif Bağırzadə** “Yeni Müsavat”a bildirdi ki, Fransa diplomatlarının Bakıya səfəri və danışıqlar aparması uzun fasilədən sonra ilk real diplomatik təmaslardan biri kimi dəyərləndirilə bilər: “Görüş zamanı ikitərəfli münasibətlər, regional vəziyyət və sülh prosesi müzakirə olunub ki, bu da tərəflərin qarşılıqlı etimadı bərpa etmək üçün yeni mərhələyə keçdiyini göstərir. Şübhəsiz ki, Fransa üçün bu danışıqlar rəsmi Parisin Cənubi Qafqazda yenidən aktiv diplomatik xətt qurmaq istəyi ilə bağlıdır. Məlumdur ki, Fransa uzun bir dövr ərzində açıq şəkildə Ermənistanı dəstəkləyən mövqe sərgiləyib. Ermənistan ordusuna silah tədarükü və hərbi təlimlərin keçirilməsi, Fransa parlamentində Azərbaycan əleyhinə qətnamələrin qəbul edilməsi, Qarabağ münaqişəsi dövründə birmənalı şəkildə Ermənistanı müdafiə edən ritorika və beynəlxalq təşkilatlarda Azərbaycan əleyhinə aparılan kampaniya buna əyani misaldır. Fransanın bu siyasəti isə haqlı olaraq rəsmi Bakının Fransaya olan



etimadını ciddi şəkildə zədələdi və iki ölkə arasında diplomatik əlaqələr uzun müddət minimal səviyyəyə endi. Odur ki, indi Bakıda keçirilən görüş, ilk növbədə, Fransanın balanslı münasibətlərə qayıtmaq niyyətində nə qədər səmimi olduğunu yoxlamaq baxımından əhəmiyyətlidir”.

**Politoloqun fikrincə, əslində Fransa hakimiyyəti də artıq anlayıb ki, Azərbaycanın iştirakı olmadan regionda heç bir sülh və təhlükəsizlik arxitekturası qurmaq və ya hər hansı bir şəkildə regionla bağlı Fransa maraqlarını təmin etmək mümkün deyil:** “Lakin bunu anlamaq bir şeydir, praktik addımlar başqa şey. Ona görə də münasibətlərin tam normallaşması üçün rəsmi Parisin praktik addımlar atması vacibdir. Yəni Ermənistanla hərbi əməkdaşlığın balanslaşdırılması, Azərbaycanın suverenliyinə açıq şəkildə hörmət nümayiş etdirməsi, Qarabağ mövzusunu birdəfəlik unutması lazımdır. Əgər Fransa bu istiqamətdə real dəyişikliklər edəcəksə, o zaman qarşılıqlı etimadın bərpa olunması da mümkün olacaq. Yəni başqa sözlə, baş vermis görüş və aparılan müzakirələr diplomatik münasibətlərin bərpası istiqamətində ilk pozitiv siqnal sayılsa da, Azərbaycan-Fransa münasibətlərində tam normallaşmaya nail olmaq üçün Fransa tərəfinin konkret addımlar atmasına ehtiyac var”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# “Turan ordusu” Azərbaycana toplaşır - yeni güc mərkəzi

## Dünya türk dövlətlərinin tarixi birliyinə şahidlik etməkdədir; böyük güc mərkəzinin formalaşması istiqamətində işlər sürətlə gedir

**Bu ilin oktyabr ayının 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib. Tədbirdə ən çox diqqət çəkən məqamlardan biri Prezident İlham Əliyevin TDT-yə üzv ölkələr arasında hərbi, müdafiə və təhlükəsizliyə dair əməkdaşlığını nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda birgə hərbi təlimlər keçirməsini təklif etməsi olub.**



“Turan ordusu”nun ilk hərbi təlimləri Azərbaycanda keçirilə bilərmi? Ümumiyyətlə, bu təklifin reallaşması nə dərəcədə mümkündür?

**“Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə” İctimai Birliyinin sədri, hərbi təhlilçi Emin Həsənli “Yeni Müsavat”da TDT-nin önəminin gələcəkdə daha çox hiss olunacağını qeyd etdi:** “Bu təşkilata üzv ölkələrin bütün sahələr üzrə əməkdaşlığı durmadan artır. O cümlədən hərbi və təhlükəsizlik sahəsində əlaqələrə daha yaxından diqqət ayrılır. Bu da təbiidir. Çünki dünya çox çətin dövrə qədəm qoyub. Terrorla demək olar ki, artıq əksər ölkələr mübarizə aparır. Ayrı-ayrı ölkələrdə hərbi büdcələr hər keçən gün artır, ən müasir silahlar istehsal olunur. Türkdilli xalqların birliyini müasir dünya tələb edir. Bu dövlətlərin ərazilərindən çox önəmli qlobal layihələr keçir. Hesab edirəm ki, bu türk dövlətlərinin birliyi çox önəmli və tarixi hadisədir. Turan ordusunun qurulması istiqamətində işlər çox sürətlə aparılır. Tarixdə türk ordularının necə qələbələr əldə etdiyi məlumdur. Azərbaycan Ordusunun Vətən müharibəmizdəki parlaq qələbəsinin artıq 5 ili gəlir və bu qələbə də türk ordusunun gücünü göstərən amillərdən biridir. Coğrafi baxımdan Azərbaycan Türk dünyasının mərkəzidir. Hesab edirəm ki, bu hərbi əməkdaşlıq gələcəkdə regionda və dünyada sülhün və təhlükəsizliyin qorunmasına çox mühüm töhfələr verəcək, bu ölkələri vahid ordusuna çevriləcək. Gələcəkdə bir ordu halında hər hansı bir təxribatın qarşısını almaq baxımdan da vacibdir”.

**Hərbi icmalçı Səxavət Məmməd TDT-nin hərbi bloka çevrilməsini hazırda real saymır:** “Türk Dövlətləri Təşkilatı (TDT) mədəni, iqtisadi, siyasi və hərbi əməkdaşlığı gücləndirmək üçün qurulmuş bir təşkilatdır. Ancaq dünyada baş verən proseslər, regional münaqişələr onu göstərir ki, təşkilatın hərbi güc kimi də ortaya çıxması mümkündür. TDT qarşısında duran əsas məsələ təşkilatın beynəlxalq aləmdə tanınması, gələcəkdə isə təşkilatla hesablaşılmasıdır.

TDT-nin klassik hərbi bloka çevrilmə ehtimalı hazırda real görsənmir. Çünki təşkilat üzvlərindən Qazaxıstan və Qırğızıstan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvüdür. Bu isə onların paralel bir hərbi blokda iştirakını çətinləşdirir. Türkiyə isə NATO üzvüdür. Türkiyənin NATO öhdəlikləri TDT daxilində ayrıca hərbi ittifaq qurmasını məhdudlaşdırır. Bu o deməkdir ki, ortaq təhlükə anlayışı formalaşmayıb. Hətta təmsil olunduqları hərbi bloklar baxımından bu ölkələr rəqib sayılırlar. Yəni TDT eyni xarici təhdidləri paylaşmır. Azərbaycan isə Qoşulmama Hərəkatının (QH) üzvüdür və bu, onun hərbi ittifaqlardan kənarda qalmaq siyasətini əks etdirir. Azərbaycan rəsmi olaraq neytral mövqe tutur, hərbi bloklara (məsələn, NATO, KTMT) qoşulmur. Bu da Azərbaycanın həm Şərq, həm də Qərb ölkələri ilə balanslı siyasət aparmasına imkan verir. Azərbaycanın bu mövqeyi TDT-də hərbi əməkdaşlığa mane olurmu? Qəti şəkildə yox. Azərbaycan TDT-də hərbi ittifaqa deyil, əməkdaşlığa maraqlıdır.

Ona görə də TDT-nin hərbi blok kimi ortaya çıxması real görsənməsə də, təşkilat üzvlərinin hərbi əməkdaşlığı, hərbi təlimlər həyata keçirməsi, sərhədlərin təhlükəsizliyi, sülhməramlı, terrorizmə qarşı mübarizə sahələrində birgə fəaliyyət göstərə bilər. Azərbaycan uzun illərdir ki, Türkiyə ilə hərbi təlimlər həyata keçirir. Bundan əlavə, TDT üzvləri ilə də birgə hərbi təlimlərin həyata keçirilməsi mümkündür. Əslində hərbi təlimlərin keçirilməsi, hərb sahəsində əməkdaşlıq heç bir bloku (KTMT, NATO), heç bir tərəfi narahat edə bilməz. Ona görə də TDT-nin Azərbaycanda hərbi təlimlər keçirməsi realdır.

Bundan əlavə, TDT hərbi blok kimi çıxış etməsə də, üzv ölkələrin hər biri təşkilat üçün bir hərbi hissə yarada bilər. Bu, təhlükəsizlik, çevik müdaxilə, terrorizmə qarşı mübarizədə istifadə oluna bilər. Buna gələcəkdəki hərbi blokun infrastrukturunun qurulması kimi də baxa bilərik. Gələcəkdə KTMT zəifləyib dağılarsa, Türkiyə NATO-dan çıxarsa, o zaman təşkilatın hərbi bloka çevilmə şansı ola bilər. Bu da o anlama gələcək ki, hazırda olmasa da, o zaman təşkilatın rəqibləri də ortaya çıxacaq. Hərbi blok kimi ortaya çıxmaq üçün çəkindirici güc (nüvə silahı) önəmlidir. Hesab edirəm ki, TDT üzvləri də bunun fərqindədir. Ona görə də daha çox iqtisadi və siyasi təşkilat kimi formalaşıb, dünyada tanınmağı və söz sahibi olmağı əsas hədəf kimi götürürlər. Hərbi əməkdaşlığı isə üzv ölkələr arasında təlimlər vasitəsilə möhkəmləndirmək istəyirlər. Bundan əlavə, silah sənayesi sahəsində də TDT üzvləri ciddi addımlar ata bilər. Türkiyə hazırda silah sənayesində fəaliyyətini davam etdirir. Azərbaycan da eyni şəkildə bu sahəyə ciddi yatırımlar edir. Hərbi təlimlər, hərb sahəsində əməkdaşlıq çox önəmlidir. TDT-nin yaxın gələcəkdə hərbi bloka çevrilməsə də, gücə çevrilmək şansı böyükdür".

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 202 (8812) 6 noyabr 2025

# Çap mediasının gələcəyi... varmı: qəzetlər ölməli, yoxsa yenidən doğulmalı? - Rauf Arifoğlunun təklifləri

**Son illərdə Azərbaycanda çap mediasının taleyi ətrafında gedən müzakirələr kəskinləşib. Bəzi mühitlərdə “qəzetlərin dövrü bitib”, “bütün resurslar yalnız yeni media yönünə sərf edilməlidir” kimi yanaşmalar yayılıb.**



“Yeni Müsavat” Media Qrupunun rəhbəri Rauf Arifoğlu “Səs” qəzetinə verdiyi açıqlamada bildirir ki, bu yanaşma tələsik və natamamdır. Onun fikrincə, qəzetlərin zəifləməsi prosesi nə qədər dərin olsa da, çap medianın yenidən dirçəlməsi üçün həm imkan, həm potensial, həm də real model mövcuddur.

### Problemin qaynağı - çap media niyə zəifləyib?

**R.Arifoğlunun sözlərinə görə, vəziyyətin səbəbləri illər ərzində sistemli şəkildə yığılıb:**

1. *Kontentin gücsüzləşməsi:*

Oxucu xəbəri daha tez, daha rahat və pulsuz şəkildə internetdən əldə edir. Qəzet isə çox hallarda təkrara çevrilib və fikir dərinliyi zəifləyib.

2. *Yayım və çatdırılma sisteminin çökməsi:*

Köşk şəbəkəsinin dağılması, abunə sisteminin geriləməsi, regionlara çatdırılmanın çətinləşməsi tirajın azalmasına səbəb olub.

3. *Texniki və vizual gerilik:*

Qəzetlərin dizaynı, kağızın keyfiyyəti, səhifə sayı və ümumi vizual görüntüsü müasir oxucunun gözləntilərinə cavab vermir.

4. *Peşəkar kadr axını:*

Təcrübəli jurnalistlər daha yüksək qazanc və daha dinamik iş mühiti olan onlayn platformalara keçiblər. Qəzetlər redaksiya potensialını mərhələli şəkildə itirib.

**“Yeni Müsavat”ın rəhbəri bildirir ki, bütün bunlar çap medianın zəifləməsinə gətirib çıxarsa da, qəzetlərin tam bağlanması Azərbaycan informasiya mühitinin intellektual dərinliyini zədələyər:** “Televiziya çıxanda kino sənayesini məhv etmədi, sosial media qlobal televiziya kanallarını sıradan çıxarmadı. Hər media forması öz təbii funksiyasını adaptasiya edərək davam edir. Qəzet də adaptasiya olunmalıdır, yoxa çıxmamalıdır.”

**Rauf Arifoğlu çap mediasının yenidən canlandırılması üçün konkret, mərhələli, ölçülə bilən proqram təklif edir.**

**1) Dövlət dəstəyi yeni mexanizmlə verilməlidir:**

- Dəstək aylıq və simvolik qrantlar şəklində yox, birdəfəlik modernizasiya kapitalı kimi ayrılmalıdır;
- Məsələn, aparıcı qəzet layihələri üçün 1-2 milyon manatlıq inkişaf paketi nəzərdə tutulmalıdır;
- Maliyyə yalnız şəffaf biznes-plan, ölçülə bilən nəticə və performans göstəriciləri əsasında verilməlidir.

**2) Kontent yenidən qurulmalıdır:**

- Qəzet operativ xəbərin deyil, analiz və dərin fikrin məkanı olmalıdır.
- Araşdırma yazıları, müəllif esseləri, geniş müsahibələr, reportajlar və xüsusi rubrikalar önə çəkilməlidir;
- Qəzetdə dərc edilən əsas materiallar tam şəkildə saytlara yerləşdirilməməlidir - məzmun dəyəri qorunmalıdır.

**3) Çap və yayım infrastrukturu müasirləşdirilməlidir:**

- Bir neçə qəzet birgə vahid çap və paylama mərkəzi qura bilər;
- Metro, dayanacaq və ticarət nöqtələrində yenidən satış şəbəkəsi formalaşdırılmalıdır;
- Rayonlar üzrə abunə və bölgü sistemi bərpa edilməlidir.

**4) Yeni abunə modeli işlənməlidir:**

- Onlayn + çap kombinə edilmiş abunə paketləri təqdim edilməlidir;
- Şirkətlər, universitetlər və ailələr üçün xüsusi tariflər hazırlanmalıdır.

**5) Kadr potensialı bərpa edilməlidir:**

- Redaksiya məktəbləri, müəlliflər üçün təqaüd proqramları, gənc jurnalistlər üçün praktika modulları həyata keçirilməlidir.

### Qəzetlər ölməsin - yenidən doğulsun

**R.Arifoğlunun fikrincə, bu gün Azərbaycan informasiya məkanının dərinləşməsi, cəmiyyətin intellektual müzakirə mədəniyyətinin qorunması, ictimai yaddaşın formalaşması üçün çap media lazımdır və qalmalıdır:** “Qəzetin bağlanması, sadəcə, bir media vahidinin yox olması deyil, düşüncə mədəniyyətinin zəifləməsidir. Qəzet ölməyib. O, sadəcə, yenidən doğulmağa ehtiyac duyur”.

❑ **“Yeni Müsavat”**

# Doqquz ayda qəzalarda beş sərxoş sürücü ölüb

**Aparılmış təhlillər göstərir ki, bu ilin 9 ayı ərzində sərxoş vəziyyətdə avtomobil idarə edilməsinə görə baş verən 6 qəzada 5 nəfər ölüb, 2 nəfər xəsarət alıb.**



APA-nın əldə etdiyi məlumata görə, ötən ilin eyni dövründə sərxoş vəziyyətdə avtomobil idarə edilməsinə görə isə 17 qəzada 8 nəfər ölüb, 12 nəfər xəsarət alıb.

İl ərzində DYP əməkdaşları tərəfindən respublika ərazisində sərxoş vəziyyətdə avtomobil idarə etdiyinə görə 9 407 fakt aşkarlanıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 621 fakt çoxdur.

Məlumata görə, bu statistika 9 407 potensial təhlükənin, ölüm və xəsarətin qabaqlayıcı tədbiridir ki, həmin sərxoş sürücülər hərəkətdən kənarlaşdırılıb. Faktlar göstərir ki, profilaktik nəzarətin gücləndirilməsi, DYP əməkdaşlarının xidmət rejiminin artırılması və narkoloji testlərin tətbiqi qanun pozuntularının vaxtında müəyyən edilməsində mühüm rol oynayıb. Davranışlarında şübhə doğuran sürücülərdə aparılan narkoloji və tibbi müayinələr onların vəziyyətinin operativ qiymətləndirilməsinə və potensial təhlükələrin qarşısının alınmasına yönəlib.

Təhlillərə görə, yollarda hadisələr təkcə ölümlə yekunlaşmır, sürücülərin, sərnişinlərin və piyadaların xəsarət almaları, sağlamlıqlarını və əmək qabiliyyətlərini itirmələri faktları ömürlük məhrumiyyətlərə, yatağa düçar olmalarına səbəb olur.

Bu il 905 yol-nəqliyyat hadisəsində xəsarət alan 757 nəfərdən 147-si ömürlük sağlamlığını itirib.

Bu hadisələrin baş verməməsi üçün narkoloji testlər, təşkil olunan profilaktik reydlər, gücləndirilmiş xidmət rejimi və radar sistemləri ictimai təhlükəsizliyin əsas məqamıdır. Bu tədbirlər nəticəsində təkcə inzibati pozuntular aşkarlanmır, həm də yüzlərlə faciənin qarşısı alınır. Əgər 10 ayda sərxoş vəziyyətdə sükan arxasında 9 407 sürücü müəyyən edilərək aşkarlanıbsa, bu, təkcə inzibati qayda pozuntusu deyil, digər insanların həyatı üçün real təhlükə göstəricisidir.




# “MTN işi”ndə ikinci soyğun - zərərçəkənlərin 560 min manatı “Yelo Bank”da yoxa çıxıb

**“Bizi qanunsuz, quldurcasına həbs edib ailələrimizi şantaj etməklə külli miqdarda vəsait tələb edib və alıblar. Bu proseslər 1-2 ayın içində baş verib. İndi isə Mövlam Şıxəliyev və başına yığdığı quldur dəstə üzvləri 4 ildir ki, həbsdədir. Bizə vurulmuş ziyan isə bu günə qədər ödənilməyib. Bizə çatmalı olan 560 min manat vəsaiti də "Yelo Bank"ın balansdan kənar hesabına köçürməklə ələ keçiriblər", - bu sözləri “Yeni Müsavat”a “MTN işi” üzrə zərərçəkmiş Əsfəl Həsənəliyev deyib.**

O bildirib ki, MTN-də onlara qarşı törədilən cinayət bu gün də davam edir: “Mövlam Şıxəliyev bizi qanunsuz həbs edib pulumuzu alırdısa, indi də eyni işi müxtəlif maxinasiyalarla digər məmurlar görürlər. Bu adamlara qarşı xüsusi əməliyyat-istintaq tədbirləri keçirilməsinə ciddi ehtiyac var. Biz Dövlət Təhlükəsizliyi Xidmətinə müraciət etmişik və cinayətlərin araşdırılmasını xahiş etmişik”.

“MTN işi” üzrə Bakı Hərbi Məhkəməsinin qanuni qüvvəyə minmiş hökmünün mülki iddia hissəsi hələ də icra edilməyib. Zərərçəkmişlərə çatmalı olan 560 min 302 manat vəsait İbrahim Zeynalovun kredit borcu adı ilə ələ keçirilib.

Məlumata görə, bu əməliyyatda İcra Baş İdarəsinin rəisi Vidadi Məmmədov, idarənin banklarla iş şöbəsinin sabiq əməkdaşı Tural Süleymanov, onun qayınatası Cavidan Hacıyev, Nərimanov Rayon İcra Şöbəsinin rəisi Rəşad Abbasov və icra məmuru Rafael Səfərov əlbir olublar. Onlar heç bir hüquqi əsas olmadan vəsaiti “Yelo Bank” ASC-nin balansdan kənar hesabına köçürüblər.

Rəsmi sənədlərdə əməliyyat “kredit ödənişi” kimi göstərilib, lakin faktiki olaraq heç bir kredit ödənilməyib.

Zərərçəkmişlərin sözlərinə görə, “Yelo Bank”ın İdarə Heyətinin sədri Anar Həsənov rəsmi zəmanət məktubu ilə bəyan edib ki, əgər məhkəmə İbrahim Zeynalovun adına aparılan köçürməni əsassız hesab edərsə, vəsait geri qaytarılacaq.

Lakin Bakı Apelyasiya Məhkəməsinin 7(103)-626/2025 saylı qərarı ilə köçürmənin qanunsuzluğu təsdiqlənsə də, bank bu pulu geri qaytarmaqdan imtina edir.

Zərərçəkmişlər hesab edirlər ki, bu hadisə təkcə maddi vəsaitlə bağlı deyil, Azərbaycanın hüquq sisteminə açıq meydan oxumaqdır.

Onlar bildirirlər ki, Cinayət Məcəlləsinin 179-cu maddəsi (mənimsəmə və israf etmə), Mülki Məcəllənin 1099-cu maddəsi (əsassız əldə etmə), eləcə də icra qərarlarının icrasına maneə törətmə halları “Yelo Bank” və bir sıra icra orqanlarının əməkdaşlarının əlbirliyi ilə baş verib.

Ən qalmaqallı məqam isə Cavidan Hacıyevin adının bu əməliyyatda hallanmasıdır. O, vaxtilə Azərbaycan Beynəlxalq Bankından 70 milyon manat kredit götürərək qaytarmadığı üçün 10 il həbs cəzası alıb. Həbsdən çıxdıqdan sonra isə kürəkəni Tural Süleymanov vasitəsilə yeni maliyyə maxinasiyalarında iştirak edib, zərərçəkmişlərin haqqına göz dikib.

Zərərçəkmişlər artıq birbaşa Dövlət Təhlükəsizliyi Xidmətinə və Mərkəzi Banka müraciət ediblər. Onlar “Yelo Bank” ASC-də baş vermiş qanunsuz maliyyə əməliyyatlarının araşdırılmasını, məsul şəxslərin-bank rəhbərliyi və icra orqanlarının əməkdaşlarının əməllərinə hüquqi qiymət verilməsini, həmçinin bankda daxili audit aparılmasını tələb edirlər.

Eyni zamanda 560 min 302 manatın və digər qanunsuz köçürülmüş vəsaitlərin dərhal geri qaytarılması və zərərçəkmişlərə ödənilməsi xahiş olunur.

Zərərçəkmişlərin fikrincə, bu hadisə “MTN işi”nin davamıdır.

“Yeni Müsavat” yazıda adı keçən bütün tərəflərin - “Yelo Bank” ASC-nin, müvafiq icra orqanlarının və digər şəxslərin mövqeyini dərc etməyə hazırdır.

❑ **E.MƏMMƏDƏLIYEV,**
**“Yeni Müsavat”**



# Palatanın altındakı nömrə

Zamin HACI
zaminhaci@gmail.com

**Rejissor Robert Rodrigesin çəkdiyi, baş rollarda Corc Kluni, Kventin Tarantino, Harvi Keytel kimi ünlülərin oynadığı "Günbatandan dan sökülənəcən" adlı çox ünlü film var. Filmin süjeti qeyri-adidir. Bilmirsən trillerə baxırsan, yoxsa komediyaya. Birdən qorxu filminə çevrilir, birdən döyüş filminə. Filmin axırlarında isə qan su yerinə axır, yolkənarı bar-kafedə vampirlər camaatı qırır və sairə. Ən son epizodda isə kamera həmin kafenin binası üzərində havaya qalxır və tamaşaçılar görürlər ki, əslində bu bina qədim Astek məbədinin, piramidaşəkilli tikilinin təpəsi imiş.**

Buradan o nəticə çıxarmaq olar ki, məbədin üzərində lap istəyirsən disko-bar tik, striptiz-klub aç, xeyri yoxdur - oradakı müqəddəs ruhlar bir gün qəzəblənib ayağa qalxacaqdır, vampirlərin, zombilərin qabağından dura bilməyəcəksən. Qədim el inanclarımıza görə, kim qəbiristanlıqdan daş oğurlayıb ev tiksə, orada xoşbəxt olmaz. Gərək ölülərdən halallıq alasan.

Hesablama Palatasının AzTV-də yoxlamalar aparması və uca kanalımızda nöqsanlar tapması xəbərini görəndə mən məhz bu cür mistik-dramatik düşüncələrə daldım. Deyir, keçən il kanala maaş üçün ayrılan pullar qonorar kimi işlədilib, 26 milyonluq əyinti vardır və sairə.

Başqa? Sizin işiniz-gücünüz yoxdurmu? AzTV-də səhv tutmaq təxminən qədim dini kitablarda eyib axtarmaq qədər küfrdür. Özünüzə gəlin. Bu yanlış yoldan qayıdın. O boyda sovet hökuməti niyə dağıldı? Çünki AzTV-nin enerji blokunu partladıb uca millətimizi bircə günlüyə, hətta gün də yox, axşamlığa kanalın efirindən məhrum etmişdilər. Nəticədə SSRİ özü kullən-kuf oldu, cəhənnəmin dibinə getdi.

Mən düşünürəm ki, Palatanı bu kafərlik və mürtədlik yoluna sövq edən məhz ərazinin mənfi aurasıdır. Kinonu ona görə misal çəkdim. Bəlkə çox adam bilmir, doxsanıncı illərdə Xaqani-33 adresində, yəni Hesablama Palatasının indiki binası tikilən ərazidə Xalq Cəbhəsinin ofisi var idi. Cürbəcür müxalifətçilər, pis fikirli jurnalistlər, kriminal ünsürlər, vampirlər, zombilər, əcinnələr orada toplaşardılar. Elçibəy çıxırdı, Əli Kərimli girirdi. "Azadlıq" qəzeti, "Turan" agentliyi, nə bilim, demokratiya elə gəldi, seçki belə getdi... Şükür olsun, uca hökumətimiz 2000-ci illərin ortalarında həmin obyektləri dağıtdı, yerində turp əkdi. Daha dəqiqi, Hesablama Palatası.

İndi Palata əziz AzTV-mizə misri qılınc çəkəndə biz həmin qılıncın qəbzəsini tutan əlin hansısa müxalifətçi şeytanın ruhundan qidalandığını dərk etməyə borcluyuq.

Belə hadisələrə çox rast gəlinir, sadəcə, insanlarımız qəflət yuxusuna getdiyi üçün, Həmid müəllim də pirlər haqqında maarifləndirici verilişlərini dayandırdığı üçün xalqın gözünü açan yoxdur. Mən hərdən az-maz cəhd edirəm, amma özüm də görürəm ki, bu işlər üzrə elmim çatmır. Həm də burada təkcə elm yox, helm də lazımdır.

Srağagün axşam Biləcəridə avtobus gül dükanına girmişdi. Sürücü danışdı, deyir, maşının beyni pozulmuşdu, mənlik iş yoxdur. Amma avtobusun nömrəsini demir! Halbuki bunun 202 saylı marşrut olduğunu desə, hamımız rahat nəfəs alarıq, beyin-meyin temalarına girmərik. Çünki bu marşrutun sürücüləri dövri-qədimdən peşəkarlığı ilə tanınardı. Qapını açıq sürmək, pəncərədən sallaşıb gedən adamlar, bir əlində tum çırtlayan, bir əlində siqaret çəkən, bir əli ilə qəpik qaytarıb sükanı qarnıyla fırladan pilotları məhz bu marşrutda görə bilərdik. Bir dəfə iki 202 yarışa çıxmışdı, qalib gələni AYNA-ya sədr seçdilər. ("İki iki yüz iki" - gör nə qədər alliterasiya, şaqraqlıq var ifadədə... Lakin mövzudan uzaqlaşmayaq, qayıdıb marşrutu tapmarıq). İndi prosesi elektronlaşdırmaqla mahiyyət dəyişmir ki? Ot kökü üstündə bitər.

Yazını da həmin kinodan sitatla bitirək, çünki bizim yazının adət-ənənəsi var: "Psixlər nə qədər sağalmaz xəstə olsalar da, hər halda, üstlərinə gün düşəndə partlamırlar". İyi seyrlər.

**Avropa İttifaqı (Aİ) nüvə təhlükəsizliyini gücləndirmək üçün Ermənistana 5 milyon avro sərmayə qoyur. Teleqraf xəbər verir ki, maliyyə iki əsas istiqamətə yönəldiləcək: Ermənistan Atom Elektrik Stansiyasının təhlükəsizliyinin gücləndirilməsi, həmçinin Ermənistanın Nüvə Təhlükəsizliyi Tənzimləmə Komitəsinin və Radiasiya Təhlükəsizliyi Elmi-Texniki Mərkəzinin peşəkar komandalarına dəstək.**



# Avropa İttifaqı Azərbaycana qarşı təhlükəni maliyyələşdirir - təpki

## Qərb nüvə təhlükəsizliyini gücləndirmək üçün Ermənistana sərmayə qoyur; Metsamor AES-i Rusiyadan qoparır, yoxsa?

"Biz birlikdə daha təhlükəsiz gələcəyə doğru mühüm addımlar atırıq" - Aİ-nin məlumatında qeyd olunur.

Qeyd edək ki, sovet dövründə Ermənistanda tikilən Metsamor Atom Elektrik Stansiyası (AES), mütəxəssislərin fikrincə, ciddi təhlükə yaradır. Zəlzələ zonasında yerləşən zavod "saatlı bomba" və "növbəti Çernobıl" kimi təsvir edilir. 1976-cı ildə açılan və ölkənin elektrik enerjisinin təxminən 40 faizini təmin edən stansiya İrəvandan cəmi 35 kilometr aralıda yerləşir. Zavod 1988-ci ildə Spitak zəlzələsindən sonra altı il bağlanıb və 1995-ci ildə yenidən fəaliyyətə başlayıb. Baş nazir Nikol Paşinyan Metsamor AES-də 2036-cı ildə, yəni hazırkı aqreqatın istismar müddəti başa çatdıqdan sonra yeni enerji blokunu işə salmağı planlaşdırdığını açıqlayıb.

Metsamor AES-in istismar müddətinin uzadılması Gürcüstan, Türkiyə, Azərbaycan, İran və Qara dənizin cənub regionunun əhalisinin, ilk növbədə isə Ermənistanın özünün əhalisinin həyatı və sağlamlığı üçün təhlükə yaradır. Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri Nüvə Enerjisi Sammitinin rəhbərliyinə açıq məktubla müraciət edərək Metsamor AES-in yaratdığı təhlükələrin aradan qaldırılmasının zəruriliyini vurğulayıblar. Hazırda zavod Rusiyanın dövlət nüvə enerjisi şirkəti "Rosatom"un texniki dəstəyi ilə işləyir. Bu vəziyyət Kremlə Cənubi Qafqazda enerji siyasətində əhəmiyyətli rol oynamağa imkan verir. Avropa Birliyi və ABŞ dərhal hərəkətə keçməli və bu "saatlı nüvə bombasını" dayandırmaq üçün təcili tədbirlər görməlidir. Ümumiyyətlə, Ermənistanın Rusiyanın "enerji köləliyindən" qurtulmaq üçün Metsamordan Qərbin xeyrinə imtina edə biləcəyi haqda xəbərlər yeni deyil. Ekspertlərə görə, ABŞ-də kiçik modul reaktorlarında da yüksək zənginləşdirilmiş urandan istifadə edilir.

Bəs Aİ Azərbaycana və regiona təhlükə saçan bir mənbənin ləğvini tələb etmək yerinə onun gücləndirilməsinə niyə vəsait ayırır? Burada hansı siyasi-iqtisadi maraq var? Bu, Ermənistanın Rusiya enerjisindən asılılığını azaltmağa hesablanmış ola bilərmi?

**Professor Qabil Hüseynli** bildirib ki, Avropa İttifaqının maliyyə ayırması Ermənistanı Rusiyanın təsirindən çıxarmağa hesablanıb. Onun fikrincə, Qərb müxtəlif layihələr həyata keçirməklə Ermənistanda Rusiyanın təsirini azaltmağa çalışır, amma bu heç də asan proses deyil: "Rusiyanın ən güclü imkanları Ermənistandadır. Nəzərə alaq ki, hələ də orada hərbçiləri və bazası var, dəmiryolları özünün mülkiyyətindədir, iqtisadi təsiri davam edir, enerji ilə Ermənistanı təmin edir və sair. Bu səbəbdən Rusiya Ermənistanın onun əlindən çıxa bilməyəcəyinə inanır. Moskvanın siyasi kluarlarında hesab edirlər ki, Paşinyan hakimiyyəti gəldi-gedərdi, Ermənistan əldən getməyəcək. Ancaq bu yanaşma doğru deyil. Son 7 ildə Ermənistanda Rusiyanın təsiri azalıb, ictimai rəy onun əleyhinədir. Ona görə də Avropa İttifaqı qənaətə gəlib ki, Ermənistanın ciddi məsələsi olan enerji sahəsində öz təsirlərini artırsın".

**Politoloq deyir ki, Ermənistanda nüvə təhlükəsizliyinə vəsait ayrılması Azərbaycan prizmasından baxanda Qərbin riyakarlığıdır:** "Əvvəla, bu ölkəyə nüvə təhlükəsi yoxdur, Ermənistan özü regiona təhdid saçır. Halbuki Avropa İttifaqı ilə Ermənistan arasında "Hərtərəfli və Genişləndirilmiş Əməkdaşlıq Sazişi" adlı sənəddə Metsamor AES-in vaxt keçdikcə istismardan çıxarılması göstərilib. Sənəddə deyilir ki, Ermənistan Metsamor AES-in fəaliyyətini dayandırmalı, ölkənin enerji təhlükəsizliyini təmin etmək üçün alternativ yollar tapmalıdır. İndi isə Ermənistana maliyyə yardımı ayrılır. Bu da ikiüzlü siyasətin nəticəsidir. Avropa İttifaqı Azərbaycana və regiona təhlükə yaradan bir mənbəni bağlamağı tələb etmək əvəzinə Ermənistanın dərdini çəkir. İkincisi, işğalçı ölkə illərlə ərazilərimizi minalayıb. Avropa İttifaqı minaların xəritəsini tələb etməli, azad olunan ərazilərdə minaların təmizlənməsində ölkəmizə maddi-texniki dəstəyi artırmalıdır".

**Professora görə, bu yanaşma siyasi əhəmiyyət daşıyır:** "Dediyim kimi, Rusiyanın Ermənistanda təsir gücünü azaltmaq niyyəti var. Ermənistana hələlik qaz Rusiyadan verilir, enerji təminatında isə Metsamor rol oynayır, təxminən 40 faizini ödəyir. Avropa İttifaqı indi onu qorumaq istəyinə düşüb. Əslində onun ləğvini tələb edirdi. Görünür, Brüssel İrəvana jest etməklə onu Kremldən uzaqlaşdıracağını proqnozlaşdırır. Onu da deyim ki, İrəvandan cəmi 35 km aralıda yerləşən Metsamorda Çernobıl kimi qoruyucu qat yoxdur. Beləliklə, Çernobılda olduğu kimi, bu AES-də baş verə biləcək qəza asanlıqla irimiqyaslı çirklənməyə səbəb ola bilər. Təəccüblüdür ki, Ermənistanın özündə bu təhlükəli müəssisəni bağlamağa çağıran vətəndaşlar və təşkilatlar azdır".

Xatırladaq ki, bu atom stansiyasının istehsal etdiyi enerji Ermənistanın elektrik ehtiyacının 40 faizindən çoxunu təşkil edir. AES İrəvandan təxminən 36 km cənubda, Metsamor şəhəri yaxınlığında yerləşir. Stansiya Türkiyə sərhədindən 17,5 km, İran sərhədindən 60 km, Azərbaycan sərhədindən isə 75 km məsafədə yerləşir. Metsamor AES-in təmirinin maliyyələşdirilməsi barədə razılaşma Ermənistan və Rusiya arasında 2014-cü ildə imzalanıb.

Ermənistan Rusiya hökumətindən alınmış maliyyə ilə Metsamor AES-də yenilənmə işləri həyata keçirir və Rusiyadan alınmış bu maliyyəyə 15 illik müddətə verilən 270 milyon dollar kredit və 30 milyon dollar qrant daxildir. Ermənistan hökuməti dövriyyəyə qoyduğu "2040-cı ilə qədər Ermənistan Respublikasının enerji sektoru inkişafının strateji proqramı"nda 2026-cı ildən sonra da yeni tikiliyə qədər Metsamor Atom Elektrik Stansiyasını istismar etməyə davam etmək niyyətində olduğunu göstərib.

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 202 (8812) 6 noyabr 2025

# ABŞ Paşinyandan üz döndərir? - Sensasion iddiaya Bakıdan baxış

## Qərb nəşrləri iqtidarı “topa tutmağa” başlayıb, məşhur amerikalı jurnalist isə Kremlin adamına tribuna verir - səbəblər

**“Qərbin hazırkı Ermənistan hakimiyyətini dəstəklədiyinə dair fikirlər olsa da, görünən odur ki, bu dəstək xeyli azalıb və heç də bütün Qərb dairələri baş nazir Nikol Paşinyanı və onun hökumətini dəstəkləmir”.**

Bu barədə “Past” qəzeti məlumat yayıb (Teleqraf).

Nəşrin yazdığına görə, bunu son vaxtlar bir sıra Qərb KİV-lərində dərc olunan kəskin məqalələr, eləcə də Avropa rəsmilərinin Ermənistana qarşı apardıqları kampaniyalar sübut edir. Mənbənin fikrincə, Paşinyanın kilsə əleyhinə apardığı kampaniya, Ermənistanda baş verən siyasi həbslər, xüsusən də rusiyalı oliqarx Samvel Karapetyanın həbsi Qərbdə o qədər də xoş qarşılanmayıb.

“Məsələn, Avronest Parlament Assambleyasının İrəvanda keçirilən son iclasında Avropa Parlamentinin deputatları Naço Sançes Amor və Sergey Laqodinski Ermənistan hakimiyyətinin hərəkətlərinə çox sərt reaksiya veriblər.

Ötən həftə nüfuzlu “Financial Times” kifayət qədər geniş məqalə dərc edib. "Ümumiyyətlə, bugünlərdə bir sıra Qərb mediası Ermənistanda baş verən siyasi həbsləri işıqlandırır. Məlum olduğu kimi (təsisçisi İrəvanda həbs edilmiş rusiyalı iş adamı Samvel Karapetyan olan), “Bizim Yol” hərəkatının koordinatoru Narek Karapetyanın Nyu-Yorka səfəri də maraqlıdır və orada onun məşhur amerikalı siyasi şərhçi Taker Karlsona müsahibəsi nəzərdə tutulub. Müsahibə zamanı hansı məsələlərə toxunulacağı yaxın vaxtlarda bəlli olacaq, amma müsahibə faktının özü çox diqqət çəkir", - qəzet vurğulayıb.

Nəşrə görə, bu fakta Ermənistanda Samvel Karapetyanın Rusiyanın dəstəyinə malik olması barədə yayılmış stereotipdən baxmaq olar: “Bu stereotip onun biznes fəaliyyətinin əksəriyyətini Rusiyada qurmasına əsaslanır. İkinci fakt budur ki, Karlson müxtəlif dövlətlərin liderləri, o cümlədən Rusiya Prezidenti Vladimir Putin, ABŞ Prezidenti Donald Tramp, İran Prezidenti Məsud Pezeşkian, Macarıstan Baş naziri Viktor Orban və sairlə müsahibələr aparıb. Ermənistana münasibətdə müsahibəyə ölkənin baş nazirini deyil, müxalifət xadimini dəvət edir. Taker Karlson Amerikanın ən tanınmış siyasi şərhçilərindən biridir və Tramp administrasiyası ilə sıx əlaqələrə malikdir. Belə məsələlərdə heç vaxt təsadüflər olmur. Deməli, Qərbdə Nikol Paşinyandan əllərini çəkməyə başlayıblar”.

Xatırladaq ki, erməni əsilli rusiyalı milyarder Samvel Karapetyan iyunda Ermənistanda hakimiyyəti devirməyə açıq çağırış ittihamı ilə həbs edilib. Bundan sonra “Bizim Yol” adlı siyasi hərəkat təsis edən iş adamı 2026-cı ildə keçiriləcək parlament seçkilərində iştirak edəcəyini açıqlayıb. Karapetyanın həbsi Rusiyada rezonans doğurub, hətta Xarici İşlər Nazirliyi səviyyəsində bu məsələyə münasibət bildirilib. Onun seçkilərdə Kremlin mümkün namizədlərindən biri olacağı barədə məlumatlar var.

Bəs bu qəbul iddialar nə dərəcədə ciddi sayıla bilər? Bu, hökumətə qarşı bir anti-PR gediş deyil ki? ABŞ Paşinyandan niyə əlini üzsün ki...

**Siyasi analitik Ramiyə Məmmədova**nın sözlərinə görə, Ermənistan hakimiyyətinin Qərbdə indi əsas dayağı Fransadır. Ekspert ABŞ-nin indiki administrasiyasının Paşinyanı Bayden dövründə olduğu qədər dəstəkləmədiyini müşahidə edir: “Bununla belə, Paşinyan Trampla bir neçə dəfə görüşmək fürsəti əldə edib, 8 avqust sənədi Vaşinqtonda imzalanıb. Yəni Birləşmiş Ştatlar əlini Paşinyan iqtidarının kürəyindən çəkməyib. Sadəcə, əsas siyasi təminatçısı Makron və Yelisey sarayıdır. Bu da özlüyündə Avropa İttifaqının Paşinyanı dəstəkləməsi anlamını verir. Hesab etmirəm ki, Qərb və ABŞ onu yarıyolda qoyacaq. Xüsusən də kritik seçkilər yaxınlaşır. Sadəcə, bəzi dairələrin onu tənqid etməsi, ABŞ-də erməni diaspor və lobbisinin maliyyəsi ilə Paşinyan əleyhinə kampaniya aparılması mümkündür”.



**Siyasi şərhçi Karlsonun müsahibə niyyətini də məhz erməni lobbisinin sifarişi sayır. Onun fikrincə, məqsəd Paşinyan hakimiyyətinin repressiv siyasət yürütdüyünü beynəlxalq ictimai rəyə təqdim etməkdir:** “Halbuki Karapetyan Rusiyanın adamıdır. Məntiqlə Qərb mediası onu müdafiə etməkdə niyə maraqlı olsun? Deməli, ABŞ-dəki erməni lobbisi İrəvandakı müxalifətlə, revanşist güclər və kilsə ilə eyni mövqedən çıxış edir, yəni hədəf Paşinyandır. Hərçənd ABŞ-dəki erməni lobbisi o qüvvələrlə bir ələ oynamalı deyil. Onlar Rusiyanın dəstəklədiyi qüvvələrin hakimiyyətə gəlməsini istəməməlidir”.

**Siyasi təhlilçi bütün hallarda Paşinyana təhlükənin Qərb yox, Rusiyadan olduğunu düşünür:** “Baxmayaraq ki, Qərb mediasında ona tənqidlər yer alır, bunu Avropa və Birləşmiş Ştatların ondan üz çevirdiyi kimi qiymətləndirmək fikrində deyiləm. Əksinə, seçki yaxınlaşdıqca, Paşinyana dəstək artırılacaq. Qərb Paşinyanı öz adamı sayır. Rusiya isə onun yerinə real namizəd tapa bilmir. Gələn il gərginlik olacaq və Rusiya müxtəlif qrupları hərəkətləndirəcək. Ancaq Paşinyanın iğtişaşları yatıracağını gözləyirəm. Ermənistanda hakimiyyəti qoruyan mərkəzlərdən biri elə ABŞ-dir. Birləşmiş Ştatların İraqdan sonra ikinci ən böyük səfirliyi İrəvanda yerləşir. Diplomatik korpusun iki mindən çox əməkdaşı var. Bu da onların kəşfiyyatçı və hərbi qüvvələr olmasından xəbər verir. Həmçinin Fransa kəşfiyyatı da Paşinyanı mühafizə edir. Eyni zamanda erməni cəmiyyəti Rusiyaya bağlı qüvvələri yenidən hakimiyyətə gətirmək istəməz. Bu, geriyə addım olardı”.

**Emil SALAMOĞLU, “Yeni Müsavat”**

# Bu, quş dili deyil, hamı yaxşı bilməlidir...

**Bu mövzuda çox yazmışıq - 5, 10, hətta 20 il öncələr də. Ayda bir dəfə sosial şəbəkələrdə də ana dilimizin saflığı barədə mübahisə başlayır və bu xüsusda fikri, bilgisi olan şəxslər azı bir həftə bu mövzuda yazır, danışır.**

**Xalid KAZIMLI**



İndi dövlət başçısı da AMEA-dakı çıxışında dilimizin qorunmasından danışıb. Dil söhbəti yenidən aktuallaşıb.

Təsadüfi deyil. Dil millətin identifikasiya kodudur. Xalqları bir-birindən məhz ana dili və onda yaradılmış elmi, ədəbi əsərlər fərqləndirir.

Böyük dövlətlərin dil məsələsində həssasiyyəti də ortadadır. Fransa 50-60 il öncə itirdiyi müstəmləkələrdə hələ də fransız dilinin şiradan çıxmamasının qayğısına qalır.

Rusiya rus dilinin öz işlekliyini qoruması üçün keçmiş SSRİ respublikalarına bəzən təzyiqlər edir, bəzən şirnikləndirir, onlarda rusdilli məktəblərin çox olmasına çalışır.

ABŞ, İngiltərə, Kanada, Avstraliya, Yeni Zelandiya kimi ölkələrin ingilis dilini yaymaq kimi bir dərdi yoxdur, dünyanın 200 dövlətində bu dili öyrənirlər.

Hər il azsaylı xalqların danışdığı neçə-neçə dil sıradan çıxır, yox olur. Çünki həmin dildə danışan qruplar böyük xalqların içində əriyir, gedir.

Əlifbası, yazısı, ədəbiyyatı olmayan dillər zamanla məhvə məhkumdur. Dili dil edən onun işlədilməsidir.

Ana dilimiz türk dili qrupuna aid olduğu və qohum dilləri çox olduğu üçün onun sıradan çıxması ehtimalı sıfıra bərabərdir, ancaq zəifləməsi mümkündür.

Etiraf etmək lazımdır ki, biz xalq olaraq bu məsələdə o qədər də məsuliyyətli deyilik.

Hələ ötən əsrin ortalarında dilçilərimiz, ədiblərimiz olmasaydı və müstəsna dərəcədə qeyrətli hərəkətlər etməsəydilər, bu gün istifadə etdiyimiz dil bu şəkildə formalaşmazdı.

Məhz onlar türk, ərəb, fars dillərinin qarışığından Azərbaycan türkcəsi əmələ, ərsəyə gətiriblər və bu gün biz bu dildə yazır, fikirlərimizi ifadə edirik. Bu dildə sanballı kitablarımız, filmlərimiz var.

Bu xüsusda narahatlıq doğuran əsas nüans odur ki, bizdə adi insanların leksikonunda rus dilində alınmış çoxlu jarqon, hətta kriminal aləmə məxsus sözlər var - “adres”dən “zamen”ə qədər.

Ziyalılar isə Avropa mənşəli sözlərlə danışmağı sevirlər - “abbreviatura”dan “ziqzaq”a qədər.

Bu üzdən leksikonumuzda çoxlu anlaşılmaz, qəliz sözlər var.

Bir də son vaxtlar Anadolu türkcəsindən çoxlu sözlər alıb işlətməkdəyik. O sözlərin çoxu qədim türk sözləridir, keçmiş vaxtlarda da leksikonumuzda olub, indi bərpasında problem yoxdur.

Elə sözlər də var ki, dilimizə düşmür, danışığımızda yamaq kimi görünür. Belə sözləri zorla leksikona, gündəlik danışıq dilimizə pərçim etmək lazım deyil. Bakıda İstanbul ləhcəsi ilə danışmağa da ehtiyac yoxdur.

Onsuz da Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin arasında gediş-gəliş, ünsiyyət artdıqca, qazax, qırğız, özbək, türkmən dillərindən yeni sözlər alacağıq. Bu, həm dilimizi zənginləşdirəcək, həm də xalqlarımızı yaxınlaşdıracaq.

Bu məsələdə maraqlı bir məqam var: adi danışıqda rus sözlərini bolabol işlədəndə, yazı-pozuda Avropa mənşəli terminlərdən hər sətirdə istifadə edəndə, bu, etiraz doğurmur, ancaq Anadolu türkcəsində “öncə”, “endirim”, “önəmli” kimi sözləri götürüb işlədəndə buna etiraz bildirənlər olur. Bəziləri “kvorum” sözünü təbii qəbul edir, “yetərsay”a əsəbiləşirlər.

Yüzlərlə bu kimi misal gətirmək olar.

İstənilən dil öz-özünü təmizləyən, duruldan, inkişaf etdirən xassəyə malik olduğundan yeni sözlərin alınmasından, bəzi arxaik sözlərin istifadədən çıxmasından əndişələnmək lazım deyil.

Heç müasir texnologiyanın gətirdiyi terminləri də zorla tərcümə etməyə, bəzən gülünc kəlmələr uydurmağa da ehtiyac yoxdur. Necə ki vaxtilə “traktor”u, “kombayn”ı tərcümə etmədən, olduğu kimi dilimizə qəbul etmişdik, indi də “kompüter”, “internet”, “monitor” və s. kimi sözləri milliləşdirmək izafi əziyyətdir.

Əsas məsələ ana dilini gənc nəslə sevdirmək, öyrətməkdir. Çünki bu, məşhur zərbül-məsəldə deyildiyi kimi, yalnız Süleymanın bildiyi quş dili deyil, bunu hamı yaxşı bilməlidir.

Təəssüf ki, müasir insanlar dilimizdəki 40 minə yaxın sözün cəmi 600-dən istifadə edirlər. Onlar bu dildə bədii ədəbiyyat az oxuyur, izahlı, izahsız lüğətlərə nəzər yetirmir, sonra da dilin kasadlığından danışırlar. Savadlı, qrammatik baxımdan düzgün yazanların sayı isə 1 faiz də deyil.

Dilimiz kasad deyil. Bu dildə olduqca ifadəli mətnlər, şedevr əsərlər yazanlar olub və var. Biz onları oxuyuruqmu? Oxumuruq. Bir neçə gün öncə məlum oldu ki, GeoStatistica-nın araşdırmasına görə, MDB məkanından ən az kitab oxuyan iki ölkədən biri Azərbaycan, o biri Qazaxıstandır.

Bundan danışmaq lazımdır. Ana dilimizdə kitab oxumadan, filmlərə, verilişlərə baxmadan nə dilimizin saflığını qorumaq olar, nə də onu inkişaf etdirmək.

YENİ MÜSAVAT
N 202 (8812) 6 noyabr 2025

# Yeni vergi dəyişiklikləri: kimləri sevindirəcək?

**Azərbaycan parlamentində 2026-cı ilin dövlət büdcəsi layihəsi və ona əlavə olunan digər sənədlərin müzakirəsi başlayıb. Hələlik komitələr səviyyəsində gedən müzakirələrdə hökumətin yüksək vəzifəli nümayəndələri iştirak edərək, müxtəlif məsələlərlə bağlı izahatlar verirlər.**

Aparılan müzakirələrdən aydın olur ki, cəmiyyəti ən çox maraqlandıran büdcə paketində vergi qanunvericiliyinə ediləcək dəyişiklikləri nəzərdə tutan qanun layihəsidir. Layihəyə əsasən, 2026-cı ildən etibarən fiziki şəxslərin əməkhaqqından gəlir vergisinin tutulması qaydası bərpa olunur. 2018-ci ildə 7 illiyə bu vergidən azad olunan özəl sektorda çalışan şəxslər yeni ildən 2500 manata qədər olan əməkhaqqının 3 faizi həcmində vergi ödəməli olacaqlar. 2027-ci ildə bu ödəniş 5 faizə, 2028-ci ildə isə 7 faizə qədər artacaq. Beləliklə, Azərbaycanda daimi gəlir vergisi 2 500 manata qədər 7 faiz, 2500-8 000 manata qədər 10 faiz, 8 min manatdan yuxarı isə 14 faiz olaraq müəyyən olunacaq.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində "2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib ki, Azərbaycanın qeyri-neft-qaz özəl sektorunda əməliyyatların mərhələli şəkildə vergiyə cəlb edilməsi ilə bağlı təkliflər təqdim olunub. Nazirin sözlərinə görə, aşağı vergi yükü tətbiq etməklə qeyri-neft-qaz özəl sektorda əməliyyatların tədricən, mərhələli şəkildə vergiyə cəlb olunması barədə təkliflər hazırlanıb: "Bu, asan müzakirə mövzusu olmayıb. Müxtəlif baxışlar mövcud idi, lakin təqdim olunan sənəd nəticə etibarilə vahid mövqeni əks etdirir".

M.Cabbarov bildirib ki, vergi islahatlarının davamı olaraq, iqtisadi artımın və şaxələnmənin dəstəklənməsi, şəffaflığın artırılması məqsədilə Vergi Məcəlləsinə dəyişikliklər layihəsi Milli Məclisin müzakirəsinə təqdim edilib: "Layihədə bir sıra stimullaşdırıcı mexanizmlər nəzərdə tutulur. Belə ki, investisiya mühitinin və sahibkarlığın təşviqi məqsədilə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sahibkarlıq subyektlərinə işğaldan azad edilmiş ərazilər üçün tətbiq edilən eyni vergi güzəştlərinin verilməsi təklif olunur; nəqliyyat sektorunda avtobus və yük avtomobillərinin istehsalının stimullaşdırılması planlaşdırılır; balıqyetişdirmə fəaliyyəti kənd təsərrüfatı sektoruna daxil edilərək bu sahəyə mövcud tamhəcmli güzəştlərin şamil edilməsi nəzərdə tutulur; nağdsız ödənişlərin stimullaşdırılması məqsədilə ictimai iaşə sektoruna vergi güzəştləri və dərəcələrin azaldılması təklif edilir.

Bununla yanaşı, ƏDV qeydiyyat həddi 200 min manatdan 400 min manata qaldırılacaq".



Nazir həmçinin vurğulayıb ki, son illərdə həyata keçirilən vergi islahatları çərçivəsində əmək münasibətlərinin leqallaşdırılmasına yönəlmiş əməkhaqqı islahatı əmək bazarının şəffaflaşmasında mühüm nəticələr verib: "Belə ki, qeyri-neft-qaz özəl sektorda 8 000 manata qədər olan əməkhaqları gəlir vergisindən azad edildikdən sonra 2019-cu il yanvarın 1-dən 2025-ci il oktyabrın 1-dək bu sektorda əmək müqavilələrinin sayı 471 min artaraq 1 milyonu ötüb, ümumi əmək müqavilələri içində payı 38,5 faizdən 54,1 faizə yüksəlib. Bunun fonunda 2018-2024-cü illərdə Dövlət Sosial Müdafiə Fondunun gəlirlərində büdcədən edilən transfertlərin payı 35,6 faizdən 17,5 faizə enib".

**İqtisadçı-ekspert Rövşən Ağayevin fikrincə, işğaldan azad olunmuş ərazilərdə tətbiq edilən vergi güzəştləri yalnız Naxçıvana deyil, bütün ölkə ərazisinə şamil olunmalıdır:** "İşğaldan azad edilmiş ərazilər üçün vergi güzəştləri eynilə 2026-cı ildən Naxçıvan MR-ə də aid ediləcək. 2033-cü ilədək qüvvədə olan güzəştlər biznesi demək olar ki, bütün vergilərdən azad edir.

Bu güzəştlərin hər 2 bölgədə hansı iqtisadi nəticələrə gətirib çıxaracağına dair dərin və elmi yükü olan bir araşdırma olduğuna əmin deyiləm. Əgər varsa, 10 və 20 il sonra bu bölgələrin iqtisadiyyatı üçün proqnozlaşdırılan göstəriciləri, hər 2 bölgənin ölkə iqtisadiyyatına verəcəyi töhfələri cəmiyyət üçün də açıqlamaq olar. Vergi güzəştləri təkbaşına iqtisadi inkişafı təmin edə biləcək alət deyil. İqtisadi azadlıqların və sağlam rəqabətin, mülkiyyət hüququna təminatların, effektiv yerli idarəetmənin olmadığı şəraitdə təkbaşına vergi güzəştləri nəticə vermir.

Əksinə, qeyd elədiyim ayaqların olmadığı, üstəgəl, şəffaflıq və hesabatlılığın, müstəqil media və vətəndaş cəmiyyətinin olmadığı şəraitdə bu cür güzəştlər çox dar iqtisadi qruplara öz sərvətlərini daha da artırmaq üçün göydəndüşmə imtiyaza, mükafata çevrilir. Bir çox hallarda bölgələrarası sosial-iqtisadi bərabərsizliyi daha da dərinləşdirir.

Əgər ölkə daxilində olan sərbəst resurslar bu bölgələrə həvəsləndirməkdən söhbət gedirsə, nisbətən aşağı vergi yükü ilə bütün bölgələrə münasibətdə bu addımı atmaq olar. Bu güzəştlər yüksək texnoloji və əlavə dəyər yaradan istehsal və xidmət üçün cəlbedici olacaqsa, nəticəsi olacaq. Əgər təkbaşına vergi güzəşti ilə iqtisadi inkişafa nail olmaq mümkün idisə, bölgələr üçün 2 faizlik 20 il sadələşdirilmiş vergi qüvvədə oldu. Ən azından bölgələrdə kiçik sahibkarlıq bunun sayəsində inanılmaz inkişaf göstərə bilərdi".

**İqtisadçının fikrincə, bütün ölkə ərazisində kiçik biznesə yönəlik vergi güzəştləri tətbiq olunmalıdır:** "Azərbaycanda qeyri-neft sektorunun inkişafına hədsiz böyük ehtiyacın olduğu bir vaxtda kiçik, xüsusən istehsal fəaliyyəti ilə məşğul olan mikrosahibkarlıq subyektlərinin imtiyazlı vergi rejimindən məhrum buraxılması kobud səhv idi. Söhbət 3 nəfərdən az muzdlu işçisi olan biznes subyektlərinin 5 faizlik gəlir vergisi ödəmək imkanını itirməsindən gedir. Məsələn, öz kənd təsərrüfatı məhsulunu emal edən ailə biznesi üçün 3 nəfər muzdlu işçi niyə lazım olsun ki? Və bu ailə 30-40 min manatlıq gəlirindən 7-8 min manat təkcə niyə gəlir vergisi ödəməyə məcbur qalsın ki? Sosial ödəmələri, kommunal xərcləri nəzərə alanda bu ailəyə məşğul olduğu xırda biznesdən heç ayda 2000 manat da pul qalmır. Belə biznesə maraq olarmı? Halbuki minlərlə belə biznes ölkədə qida bolluğunun təmin olunması, rəqabət mühitinin yaranması, minlərlə insana rəsmi məşğulluq yaradılması baxımından əvəzsiz töhfədir.

Ən azından dövriyyəsi 100 min manat qədər olan mikrosahibkarlara bu güzəştli rejimi saxlamaq lazım idi. Bir az strateji düşüncə olsa, hətta 300 min manata qədər dövriyyə üçün sırf qida sənayesi üçün saxlamaq çox böyük fayda gətirərdi. İstehsal sektoru, xüsusən kənd təsərrüfatına bağlı sənaye iqtisadiyyat üçün əlavə dəyər yaratmaq potensialı böyük olan istiqamətdir".

**R.Ağayev Gürcüstan və Ermənistanda kiçik biznes üçün daha əlverişli vergi rejiminin olduğunu deyir:** "Gürcüstanda kiçik sahibkarlıq üçün imtiyazlı vergi rejimi: İllik dövriyyəsi 500 min laridən az (təxminən 310 min manat) kiçik sahibkarlar dövriyyəsinin 1 faizi, 500 min larini ötənlər 3 faizi qədər vergi ödəyirlər. İllik dövriyyəsi 30 min laridən (təxminən 19 min manat) az olan mikrosahibkarlıq subyektlərinə özünüməşğul statusu verilir və onlar vergidən azaddır

Ermənistanda kiçik sahibkarlıq üçün imtiyazlı vergi rejimi: İllik dövriyyəsi 24 milyon dramı (təxminən 110 min manat) ötməyən kiçik və mikrosahibkarlıq subyektləri dövriyyədən aşağıdakı dərəcələrlə vergi ödəyirlər: ticarət sektoru 10 faiz, istehsal fəaliyyəti 7,5 faiz, media fəaliyyəti 1,5 faiz".

Büdcə paketində diqqəti cəlb edən daha bir layihə Azərbaycanda hüquqi şəxs yaratmadan, yəni fiziki şəxs kimi sahibkarlıqla məşğul olanların Dövlət Sosial Müdafiə Fonduna (DSMF) ödədiyi sosial sığorta ödənişlərinin məbləğində dəyişikliyi nəzərdə tutur. "Sosial sığorta haqqında" Qanuna nəzərdə tutulan dəyişikliklərə əsasən VÖEN-lə işləyən fiziki şəxslərin DMSF ödənişinin hesablanması qaydası dəyişir. Qeyd edək ki, hazırda fiziki şəxslər üzrə DSMF ödənişləri minimum əməkhaqqına əsasən hesablanır. İndiki qaydaya əsasən dövriyyənin məbləğindən asılı olmayaraq, hər bir fiziki şəxs minimum əməkhaqqının 25 faizi, yəni 100 manat sosial sığorta haqqı ödəməlidir. Bakıda bu məbləğin 100 faizi, yəni elə 100 manat, Sumqayıt və Gəncə şəhərlərində 90 faizi, yəni 90 manat, digər şəhərlərdə 80 faizi yəni 80 manat, rayon mərkəzləri və qəsəbələrdə 60 faizi yəni 60 manat, kənd yerlərində isə 50 faizi yəni 50 manat hesablanır.

Gələn ildən isə rayon-şəhər fərqi aradan qaldırılacaq və DSMF ödənişi fiziki şəxsin gəlirinin dövriyyəsinə görə hesablanacaq - dövriyyənin 2 faizi. Lakin bu məbləğ üçün minimum və maksimum hədd qoyulub. Belə ki, aylıq DMSF ödənişi minimum əməkhaqqının 15 faizindən az, 100 faizindən çox olmamalıdır. Yəni 60-400 manat arasında dəyişəcək.

Başqa sözlə, əgər indiyədək DSMF ödənişi minimum 50 manat idisə, indi 60 manata, maksimum ödəniş isə 100 manatdan 400 manata yüksəlir.

**R.Ağayev hesab edir ki, sahibkarlıqla məşğul olan fiziki şəxslər üçün DSMF ödənişinin minimum əməkhaqqına bağlanmasının tamamən aradan qaldırılması vacibdir:** "Biz illərdir bunu təklif edirik. İndi müəyyən dəyişiklik edilir, lakin yenə minimum və maksimum məbləğ minimum əməkhaqqına bağlı saxlanılır. Bu bağlılıq tamamən aradan qaldırılmalı və dövriyyədən konkret bir hissəni ehtiva etməlidir".

Qeyd edək ki, sadələşmiş vergiyə cəlb olunan məbləğin 200 min manatdan 400 min manata qədər artırılması həm sahibkarlar, həm də müstəqil ekspertlər tərəfindən təqdir olunur.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 202 (8812) 6 noyabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Milli kimlik və varlığımızın tək şərti

## Deputatdan SOS: "Azərbaycan dili üzərində böyük təzyiq var"

### Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

**Azərbaycan Prezidenti İlham Əliyev Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyi zamanı çıxışında bir çox məsələ ilə yanaşı, Azərbaycan dilinin qorunması ilə bağlı narahatlığını da dilə gətirib. Ölkə başçısı vəziyyətin qaneedici olmadığını bildirib: "Dilimiz çox zəngindir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Ancaq təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları bizik - müstəqil Azərbaycan dövləti".**

Ölkə başçısı qeyd edib ki, hər bir millət, hər bir xalq üçün ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır: "Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yeni dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. 10 il bundan əvvəl mən bu məsələni qaldırmışdım. Çünki bu, məni narahat edirdi. On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya biləк. Amma yenə də oradan-buradan eşidirəm - həm televiziyalarda, həm yazılı mediada, həm bəzi insanların çıxışlarında, buna heç bir gərək yoxdur. Yəni biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər. Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm. Azərbaycan alimlərindən də bax, bu məsələyə də öz münasibətini və dəstəyini göstərmək çağırışını edirəm".

Prezidentin fikirləri bu gün dilimizin saflığının və əhəmiyyətinin qorunmasının nə qədər vacib olduğunu bir daha ortaya qoyur. Son illərdə ana dilimizə yad və qəribə sözlərin daxil olması, xüsusilə televiziyalarda, yazılı mediada və sosial şəbəkələrdə Azərbaycan dilinin saflığının pozulması ciddi problemə çevrilib.

Dilin təmizliyi sözsüz ki, həm də mili kimliyimizi qoruмağımızın göstəricisidir. Əgər neqativ tendensiya davam edərsə, gələcək nəsillər öz dilini, mədəniyyətini və kimliyini itirə bilər. Bu səbəbdən dilimizin qorunmasına dair maarifləndirmə işləri daha da genişləndirilməlidir. Bu istiqamətdə


Hikmət Babaoğlu

media, məktəblər, universitetlər və mütəxəssislər aktiv rol oynamalıdırlar. Hər bir Azərbaycan vətəndaşı, xüsusilə gənclər, öz dilini sevib, onu qorumaq üçün təşviq edilməlidir. Təkcə dövlətin deyil, cəmiyyətin bütün təbəqələrinin bu məsələyə biganə qalmamaları və dilin saflığının qorunmasına öz töhfələrini vermələri vacibdir. Bu yolla biz öz dilimizi, mədəniyyətimizi və milli kimliyimizi gələcək nəsillərə çatdırmaqda uğur qazana bilərik.

**Milli Məclisin deputatı Hikmət Babaoğlu** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycan Prezidenti AMEA-da çıxışı zamanı Azərbaycan dilinin qorunmasından danışaraq dili milli varlığın əsas vasitəsi kimi göstərib. Deputat vurğuladı ki, ölkə başçısı Azərbaycan dilinə qarşı təzyiqlərin, bəzən isə təxribatların olduğunu dilə gətirib: "Bu, əslində dilimiz, onun üslubu, işlənməsi ilə bağlı mövcud reallığın ictimai diqqətə təqdim edilməsi, akademiyanın bu problemlərin həlli üçün səfərbər edilməsinə çağırış idi. Dil kütləvi hadisə olduğu üçün bu, sadəcə, akademik səviyyədə həll olunacaq məsələ deyil, dilin qorunması xalqın, ictimaiyyətin vəzifəsidir. Genetik olaraq dil daşıyıcısının vəzifəsi və borcudur.

Təəssüf ki, hazırda Azərbaycan dili üzərində böyük təzyiqlər var. Təzyiqləri qruplaşdırmağa çalışsaq, görəcəyik ki, bunların bir hissəsini müasir texnologiyalar, sosial şəbəkələr, qlobal informasiya məkanı yaradır. Dil "simvollaşdırılır", "işarələşdirilir", leksik ehtiyatlar məhdudlaşdırılır. Bu isə dil daşıyıcılarının gündəlik danışığında özünü büruzə verir. Leksik yaddaş kiçildikcə dil fondu zədələnir. İkinci məsələ film fondunun inkişafı və informasiya məkanına daxil olması ilə bağlıdır. İnternet resurslarında istənilən filmin müxtəlif proqramlar vasitəsilə izlənməsi yeni nəslin dil yaddaşını zədələyir. Müxtəlif dillərin təqdimatı dil yaddaşı tərəfindən mənimsənilir. Nəticə etibarilə Azərbaycan dilində səlis danışmaq, dilin leksik fondunu mənimsəmək çətinləşir.

Diqqətçəkən digər amil elektron media təqdimatlarıdır. Müxtəlif verilişlərdə dil təhrif olunur, yaxud düzgün tələffüz olunmur. Beləliklə, dil deformasiyaya məruz qalır. Ədəbi dil normaları qorunmadığı üçün jarqon, ləhcə və məişət dili normaya çevrilir. Bu baxımdan televiziyaların üzərinə çox böyük məsuliyyət düşür. Bəzən aparıcılar sözləri düzgün tələffüz edə bilmirlər. Zamanla bu, bir növ dəbə çevrilir. Mənə elə gəlir ki, ictimai, humanitar institutlar daxil olmaqla, cəmiyyətin bütün intellektual təbəqəsi dilimizin keşiyində durmağı bacarmalıdır. Akademik səviyyədə isə dilimizin zənginləşdirilməsi üçün addımlar atılmalıdır. Orfoqrafiya lüğətində sözlərin sayını süni surətdə artırmağa ehtiyac yoxdur. Lüğətə Prezidentin dediyi kimi, əzəli olaraq öz dilimizdə olan sözləri daxil etməklə zənginləşdirmək olar. Təəssüf ki, o sözlərin əksəriyyətini ləhcələrdə, dialektlərdə görsək də, lüğətə gətirib ədəbi dilin məhsuluna çevirə bilmirik. Əksinə, xarici dillərdən alınma yad sözlərdən istifadə edirik. Halbuki o sözlər ana dilimizdə mövcuddur. Ya həmin sözləri arxaikləşmiş hesab edirik, ya da məişət sözü kimi qəbul edirik. Nəticədə dilin imkanları məhdudlaşır. Odur ki, bu istiqamətdə mühüm addımlar atılmalı, Azərbaycanın intellektual ordusu Prezidentin fikirlərini bir növ fəaliyyət proqramı kimi qəbul etməlidir".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Nigar HƏSƏNLİ**

# "Azərbaycanda dini icmalar dövlətin qayğısı altındadır"

## Ramin Məmmədov: "Milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunması mümkün olmazdı, əgər..."

**"Bu gün ölkəmizdə mövcud olan sabitlik və harmoniyanın əsasında, heç şübhəsiz, Ümummilli lider Heydər Əliyevin müdrik siyasəti və milli-mənəvi dəyərlərə verdiyi önəm dayanır".**

Musavat.com xəbər verir ki, bunu dünən **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov** "Fərqliliyin rəngi" adlı festivalda çıxışı zamanı deyib.

O qeyd edib ki, konstitusiyamızda təsbit olunan vicdan azadlığı və bütün dini etiqadların qanun qarşısında bərabərliyi prinsipləri tolerantlıq modelimizin əsas hüquqi dayağı, xalqımızın əsrlər boyu formalaşdırdığı birgəyaşayış fəlsəfəsinin təsdiqidir: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə vurğulayıb ki, ölkəmizin ən böyük sərvətlərindən biri etnik-dini müxtəlifliyimiz və bu müxtəlifliyin milli həmrəyliyə çevrilməsidir. Sahib olduğumuz unikal



dövlət-din münasibətləri modeli sayəsində bu gün Azərbaycanda bütün dinlərin nümayəndələri sərbəst şəkildə ibadət edir, dini icmalar dövlətin qayğısı ilə əhatə olunur. Ölkəmiz beynəlxalq aləmdə sülh və sabitliyin hökm sürdüyü nadir nümunələrdən biri kimi tanınır.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr isə bu mühiti daha da möhkəmləndirir, Azərbaycanın multikultural dəyərlərini dünya miqyasında tanıdır. Bu festival da Azərbaycan cəmiyyətində əsrlərdir formalaşmış tolerantlıq və multikultural dəyərlərin təzahürü, xalqımızın birgəyaşayış fəlsəfəsinin ifadəsidir. Bir müddət öncə Dövlət Suverenliyi Gününü qeyd etdik. Üç gün (iki gün - red.) sonra isə Azərbaycan tarixinin ən şanlı tarixini - Zəfər Gününü qeyd edəcəyik. Tarixə qızıl hərflərlə yazılan bu qələbələr xalqımızın azadlıq, ədalət və milli birliyə sarsılmaz inamının təntənəsidir. Suverenlik və Zəfər - Konstitusiyamızın, dövlətçiliyimizin və birliyimizin təməl sütunlarıdır".

**Komitə sədri deyib ki, ərazi bütövlüyünün və suverenliyin bərpası sayəsində bu gün Azərbaycan öz milli irsini, dini-mədəni müxtəlifliyini və konstitusion dəyərlərini qoruyaraq gələcəyə daha da inamla addımlayır:** "Suverenlik bizim ən ali dəyərlərimizdən, ən böyük tarixi nailiyyətlərimizdən biridir. Suverenlik olmadan konstitusiya prinsiplərinin və qanunların tətbiqi, xalqımızın əsrlər boyu formalaşmış milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin qorunması mümkün olmazdı. Biz tarixin keşməkeşli və ziddiyyətli bir dövründə ən böyük zəfərlərə imza atmış güclü bir dövlətin vətəndaşlarıyıq. Elə bir dövlətin ki, dini və etnik mənsubiyyətindən, əqidəsindən inancından asılı olmayaraq bu torpaqlarda yaşayan hər kəsin ümumi sərvətidir. Ölkəmizdə məscid, kilsə və sinaqoqların bir-birindən yalnız bir neçə yüz metr məsafədə yerləşməsi birgəyaşayışı, qarşılıqlı hörməti və multikultural dəyərlərimizi təcəssüm etdirir. Yanaşı duran bu çadırlar eyni Vətənin övladları olaraq bizi birləşdirən mənəvi körpünün simvollarıdır.

Nümayiş olunan fotostendlər, videoçarxlar, ədəbiyyat nümunələri, əl işlərindən ibarət sərgilər və musiqi proqramları isə Azərbaycanın zəngin mədəni-dini palitrasını bütün rəngləri ilə əks etdirir. Bu tədbir bir daha göstərir ki, Azərbaycan dövlətçiliyi minillik dəyərlərdən, hüquqi ədalət və milli iradədən güc alır. Bu festival təkcə mədəni tədbir deyil, həm də suverenliyimizin, konstitusiya prinsiplərimizin və çoxəsrlik birgəyaşayış modelimizin canlı nümayişidir. Azərbaycanda mövcud olan fərqlilik bu ölkədə yaşayan bütün vətəndaşların mənəvi güc mənbəyidir. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz Böyük Zəfər də məhz bu gücün, birliyin və Azərbaycan xalqının öz keçmişinə sadiqliyinin sayəsində mümkün olmuşdur".

Komitə sədri bildirib ki, bu cür festivallar yalnız dini və mədəni irsimizi qoruyub saxlamaq üçün deyil, həm də gələcək nəsillərə birgəyaşayışın, qarşılıqlı hörmətin və tolerantlığın əhəmiyyətini göstərmək baxımından önəmlidir.

❑ **Etibar SEYİDAĞA, "Yeni Musavat"**

Yeni MÜSAVAT
N 202 (8812) 6 noyabr 2025



# Katolikosa sonuncu ultimatum - Ermənistan qarışsa...

## Paşinyanın vəziyyəti gərginləşir; erməni baş nazirin başı dərddə

**"2026-cı il parlament seçkilərindən əvvəl Erməni Apostol kilsəsinin rəhbərliyində dəyişiklik baş verməlidir". Bu barədə Ermənistan parlamentinin spikeri Alen Simonyan jurnalistlərə açıqlamasında bildirib.**

Simonyan bütün ermənilərin katolikosu II Qaregini vaxtında istefa verməyə çağırıb: "O başa düşməlidir ki, işlərin alternativi olmayan bir nöqtəyə çatmasına imkan verməməlidir. Alternativi olduğu müddətcə bu qərarı özü verə bilər".

Qeyd edək ki, artıq katolikosun qardaşı və qardaşı oğlu da həbs edilib.

Simonyan, əlbəttə ki, Nikol Paşinyanın sözünü deyir. Bəs ultimatum niyə məhz seçkilərədək olan dövrü əhatə edir? II Qareginin istefası daxili ictimai-siyasi sabitliyə necə təsir edə bilər?

**Siyasi təhlilçi Sona Əliyeva** "Yeni Müsavat"a söylədi ki, katalikos kartı Kremlin İrəvanda hakimiyyəti dəyişmək və Nikol Paşinyanı devirmək üçün son şansdır: "Moskva kilsə-hökumət gərginliyindən maksimum yararlanmağa çalışacaq. Buna baxmayaraq, Paşinyan da hakimiyyəti və xalqı kilsə maqnitizmindən xilas etməyə, daha doğrusu, ayrı salmağa səy göstərəcək. Paşinyan əlindəki bütün mümkün imkanlardan yararlanmağa çalışacaq. O öz siyasi hakimiyyətinin ömrünü uzatmaq və Rusiyanın təsirini minimuma endirmək üçün Qaregin və onun "xüsusi təyinatlı şər yuvasını" zərərsizləşdirməyə fokuslanıb. Fikrimcə, Qareginin istefası həm də Ermənistandakı referendum öncəsi çox xüsusi əhəmiyyətə malikdir. Onun istefası Ermənistanı sülhə aparacaq yolun başlanğıcı sayıla bilər. Əgər radikal kilsə camiəsi silaha sarılmasa, Paşinyan sabitliyin axarını və bütün riskləri idarə edə biləcək".

**"Müasir İnkişaf" İctimai Birliyinin sədri, siyasi şərhçi Mübariz Göyüşlü hesab edir ki, hər an Ermənistanda vəziyyət qarışa bilər:** "Ermənistanda baş nazir Nikol Paşinyan hakimiyyəti ilə Erməni Apostol kilsəsi, onun başçısı II Qaregin arasında mübarizə hələ bir müddət də davam edəcək kimi görünür. Çünki tərəflərin heç birisi iddialarından və tələblərindən geri çəkilmək fikrində deyil. Xüsusilə də Paşinyan hökuməti hazırkı kilsə rəhbərini dəyişdirməkdə qərarlı görünür. Çünki qarşıdan seçkilər gəlir və bu proses, orada qalib gəlmək Paşinyan üçün çox vacibdir. Bu parlament seçkilərində qalibiyyət hazırkı hökumətin dayaqlarının möhkəmlənməsinə çox böyük dəstək olacaq. Bir növ bu seçkilər ölüm-dirim mübarizəsinə dönməkdədir. Hazırkı hakimiyyət buna görə də seçkilərdə ona ciddi problem yaradacaq qurumları, şəxsləri zərərsizləşdirməyə iddialıdır. Bu məsələdə sonuncu müqavimət cəbhəsi kimi kilsinin qaldığı görünür. Ona görə də Paşinyan və onun komandası kilsəni, onun rəhbəri II Qaregini müxtəlif təzyiq və təsirlərlə sındırmağa, istefa verməyə məcbur etmək istəyir.

Bugünə olan nəticələri təhlil etdikdə demək olar ki, Paşinyan qalib kimi görünür. Baş nazir kilsənin dayaqlarını sarsıtmaqdadır. Artıq II Qareginin tərəfdarları, yaxın qohumları həbs edilir, ona qarşı təzyiq kampaniyası gücləndirilir, onun iradəsindən kənar olaraq ruhanilər müxtəlif yerlərdə vəzifələrə təyin olunurlar. Bu, II Qareginin səlahiyyət və imkanlarının dairəsinin daralmasının göstəricisidir. Bu gedişlə əgər hər hansısa qəfil, plandankənar hadisələr baş verməzsə, Paşinyana qarşı terror-təxribat əməlləri gerçəkləşməzsə, Erməni Apostol kilsəsinin hazırkı rəhbərliyinin məğlub olacağı ilə bağlı ehtimallar özünü doğrulda bilər.

Baş verənlərin ictimai-siyasi sabitliyi pozduğu, Ermənistanda gərginliyi artırdığı söylənilə bilər. Bu qarşıdurmanın daha ciddi mərhələyə keçməsi vətəndaş qarşıdurmasına da gətirib çıxara bilər. Hərgah hazırkı durumda bu məsələ az ehtimal olunur. Amma vəziyyət hər an nəzarətdən çıxa və daha ciddi, problemli mərhələyə qədəm qoya bilər".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# NATO Rusiya təhlükəsinə qarşı

## Alyansın 32 üzvü hazırlaşır, 10 üzvü isə narahatdır

**NATO Rusiya təhlükəsinə qarşı genişmiqyaslı müdafiə planı hazırlayıb. Bu barədə Almaniyanın "Welt" nəşri məlumat yayıb. Nəşr bildirir ki, 4400 səhifədən ibarət plan şərq cinahına diqqət yetirməyi nəzərdə tutur.**

"Şərq cinahında məhdudlaşdırma xətti konsepsiyası" adlı sənəd NATO-nun bütün 32 üzvünün iştirakı ilə hazırlanıb. Təqaüddə olan yüksək rütbəli NATO generallarından biri "Welt" nəşrinə bildirib ki, Rusiya artıq NATO ilə toqquşmaya hazırlaşmaq üçün "sıfır mərhələ" vəziyyətindədir. Keçmiş general vurğulayıb ki, NATO, xüsusilə Baltikyanı ölkələr üçün ən böyük təhlükə Ukraynadakı müharibənin bitməsindən sonra ortaya çıxacaq. Kreml resurslarını şimala yönəldərək işğala başlaya bilər.

NATO-Rusiya toqquşması ehtimalı getdikcə artır, yoxsa...

**Siyasi şərhçi Heydər Oğuz** "Yeni Müsavat" qəzetinə açıqlamasında bildirib ki, NATO yarandığı gündən bəri şərq cinahını özünün əsas prioriteti olaraq görüb və Rusiya ilə potensial müharibəyə hazırlaşıb: "NATO-nun yaradılması belə rus təhlükəsinə qarşı Qərb ölkələrinin birgə mübarizəsini təşkil etmək olub. SSRİ dağıldıqdan sonra Rusiya xofu qismən azalsa da, xüsusilə Ukraynanın bəzi ərazilərinin 2014-cü ildə işğalından sonra bu problem yenidən ortaya çıxdı və NATO dövlətləri təhlükənin qarşısını almaq məqsədilə bəzi mühüm addımlar atmağa başladılar. Atılan addımların əsas fokuslandığı coğrafiya isə şərq cinahı oldu. Xüsusilə Baltikyanı ölkələr və Polşanın müdafiəsi NATO-nun 1 nömrəli prioritetinə çevrildi.

NATO-nun Rusiya ilə həmsərhəd ölkələri 4 noyabr 2015-ci il tarixində Rumıniyanın paytaxtı Buxarestdə toplandı və şərti adı "Buxarest 9-lusu" (B-9) olan ittifaq qurduqlarını bəyan etdilər. NATO daxilində yaradılan bu qrupa Bolqarıstan, Çexiya, Estoniya, Macarıstan, Latviya, Litva, Polşa, Rumıniya və Slovakiya daxil idi. 2023-cü ilin aprel ayında Finlandiya NATO-ya girdikdən sonra B-9-un üzvlərinin sayı 10-a yüksəldi. Qrupun təsis bəyanatında açıq şəkildə ifadə olunurdu ki, B-9 ittifaqı Krımın ilhaqından və Rusiyanın Ukraynanın şərqinə müdaxiləsindən sonra Rusiyaya qarşı yaradılıb və Moskvanın aqressiv hərəkətlərini neytrallaşdırmağı qarşısına məqsəd qoyub. 2022-ci ilin fevralında Rusiya Ukraynaya hərbi müdaxilə edəndən sonra B-9 ittifaqı da öz fəaliyyətini aktivləşdirdi".



**Heydər Oğuzun fikrincə, NATO-nun indiki baş katibi Mark Rutte yeni vəzifəsini təhvil aldıqdan bir müddət sonra bəyan etmişdi ki, Avropa ölkələri müdafiə xərclərini əhəmiyyətli dərəcədə artırmasalar, 4-5 ildən sonra rus dilini öyrənməli olacaqlar**: "Məncə, NATO ölkələrində rus xofunun yenidən qabarmasının əsas sirri məhz Ruttenin bu sözlərinin altında gizlənir. Məqsəd alyansın Avropa müttəfiqlərinin hərbi xərclərini 2035-ci ilə qədər ÜDM-lərinin 5 faizinə çıxarmaqdır. Bu, haradasa, ildə 1 trilyon dollara yaxın vəsait deməkdir və nə qədər ki, "rus xofu" yaşayır, Avropa dövlətləri özlərinə lazım olan silah-sursatları ABŞ-dən almalıdırlar. Nəticədə Amerikanın silah sənayesi ildə 1 trilyon dollarlıq yeni bazar qazanacaq".

**Siyasi şərhçinin iddiasına görə, NATO-nun "Şərq cinahında məhdudlaşdırma xətti konsepsiyası"nı ABŞ ordusunun Avropa və Afrikadakı komandanı, general Kristofer Donahyu hazırlayıb və o da Rusiya-NATO gərginliyinin getdikcə artmasında maraqlı olan generallardandır**: "Kristofer Donahyu bu ilin 17 iyulunda verdiyi bəyanatla az qala Rusiya ilə NATO arasında savaş çıxaracaqdı. O, öz açıqlamasında bəyan etmişdi ki, NATO alyansı Kalininqradı xəritədən silə bilər. Generalın sözlərinə görə, hazırda alyansın belə bir əməliyyat üçün hər cür imkanları var və artıq plan da hazırlanır. Üzərindən bir neçə ay keçəndən sonra Kristofer Donahyunun "Şərq cinahında məhdudlaşdırma xətti konsepsiyası" adlı sənədi müttəfiq quru qoşunlarının ali qərargahına təqdim etdiyi barədə məlumatlar yayıldı. Bu sənəddə 2015-ci ildə təsis olunan B-9 ittifaqından fərqli olaraq Rusiyaya qarşı mübarizənin çərçivəsi xeyli genişləndirilirdi. "B-9-dakı 9-10 ölkə NATO-nun şərq cinahında Rusiya ilə döyüşlərə hazırlanırdısa, "Şərq cinahında məhdudlaşdırma xətti konsepsiyası"nda NATO-nun bütün üzvləri - 32 müttəfiqin hərbi qarşıdurmaya qatılması nəzərdə tutulur".

**Heydər Oğuz qeyd edir ki, sənədin müəllifinin ABŞ generalı olması və Pentaqonun Avropa və Afrikadakı komandanlığına rəhbərlik etməsi NATO-Rusiya gərginliyinin ən yüksək səviyyəyə çıxmasında Vaşinqtonun maraqlı olduğunu göstərir:** "Amma Vaşinqton doğrudan NATO-Rusiya savaşı istəyirmi? Yoxsa bu, sadəcə, NATO ölkələrinə daha çox silah sataraq onları istismar etməyə hesablanmış təklifdir? Zənnimcə, ikinci versiya daha inandırıcıdır. Çünki Rusiya ilə NATO arasında müharibə başlasa, Rusiya təkcə Şərqi Avropanı bombalamaqla qalmaz, bu planın hazırlanmasında mühüm rol oynayan ABŞ-ni də hədəfə alar. Başı Çində və Yaxın Şərqdə ciddi problemlərə qarışan Vaşinqtonun Rusiya ilə qarşıdurmaya gedəcəyinə inanmıram.

Bununla belə, Ukraynadakı savaşın seyrindən asılı olaraq, NATO-nun "şərq cinahı" konsepsiyasının işə düşmə ehtimalı da istisna edilə bilməz. Çünki başda ABŞ olmaqla, Qərb dövlətləri də, Çin də Ukrayna müharibəsinin tezliklə bitməsində maraqlı deyillər. Məntiqlə, Rusiya bu savaşda təşəbbüsü ələ ala bilsə, onun diqqətini şimala çəkmək üçün Kalininqradın yeganə qapısı sayılan Suvalki dəhlizinin bağlanması və Rusiya-Baltikyanı ölkələr savaşının çıxması qaçılmaz olacaq. Təsadüfi deyi ki, Rusiya Donbas istiqamətində irəliləməyə başlayan kimi Litva prezidenti Gitanas Nauseda Belarusla sərhədi həmişəlik bağlamaq və ya Kalininqrada tranziti məhdudlaşdırmaq təklifi ilə çıxış etdi. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov buna reaksiya verərək bildirdi ki, əgər Nausedanın təklifi həyata keçərsə, Moskva buna dözməyəcək və ekslava gedən yolları öz gücünə açacaq. Ukrayna Donbasda təşəbbüsü yenidən ələ aldıqdan sonra isə Suvalki dəhlizində səs-səmir kəsildi. Zənnimcə, bu, səbəbsiz deyildi. Bayaq da qeyd etdiyim kimi, B-9 təşəbbüsü Ukraynaya və Moldovaya ən kritik anda hərbi dəstək verilməsi üçün təsis olunub".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 202 (8812) 6 noyabr 2025

# Ölkəni bürüyən “kitayski” maşınlar yanır - güvənsizlik

## Ekspert xəbərdarlıq edir: “Çin istehsalı avtomobillər köhnəldikcə təhlükəli hallar da artacaq”

**Son vaxtlar Azərbaycanda Çin istehsalı olan avtomobillərin sürətlə artması müşahidə olunur. Xüsusilə də elektrikli modellərə maraq böyüyüb. Lakin axır vaxtlar baş verən bəzi hadisələr, o cümlədən yanğın və texniki nasazlıq hallarının qeydə alınması cəmiyyətdə narahatlıq yaradır.**

Salyan rayonunda “Haval” markalı minik avtomobilinin yanması ilə bağlı son hadisə isə sualları daha da aktuallaşdırıb.

Çin avtomobilləri doğrudanmı təhlükə mənbəyinə çevrilir, yoxsa problem daha çox elektrikli avtomobillərin texniki xüsusiyyətləri ilə bağlıdır?

**Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının icraçı direktoru Eyyub Əliyev** Modern.az-a avtomobillərdə baş verən yanğının səbəbini izah edərkən bildirib ki, yanğın halları müxtəlif səbəblərdən qaynaqlana bilər. Onun sözlərinə görə, xüsusilə köhnə avtomobillərdə daxili naqillərin köhnəlməsi bu riski artırır. O, həmçinin vurğulayıb ki, bu hallar avtomobilin istehsal olunduğu ölkə ilə bağlı deyil: “ABŞ, Yaponiya, Koreya və ya Çin istehsalı olmasından asılı olmayaraq, bütün avtomobillərdə bu cür hadisələr baş verə bilər. Sadəcə, hazırda Çin avtomobilləri bazarda daha geniş yayılıb və daha çox satıldığı üçün belə hadisələrdə onların adı daha çox hallanır. Ümumilikdə aparılan müşahidələr onu göstərir ki, avtomobillərdə yanğınların əsas səbəbi sonradan qoşulan əlavə avadanlıqların düzgün quraşdırılmamasıdır”,- deyə icraçı direktor qeyd edib.

Onu da bildirək ki, son illər Azərbaycanda Çin avtomobillərinə maraq nəzərəçarpacaq dərəcədə artıb. Yerli avtosalonlarda yeni modellərin çeşidi genişlənib, şəhər yollarında isə “Changan”, “Geely”, “BYD” və “Chery” markalı Çin avtomobilləri tez-tez qarşımıza çıxır.

Mütəxəssislər xəbərdarlıq edirlər ki, ucuz qiymət və zəngin seçimə baxmayaraq, Çin avtomobillərinin bir sıra mənfi cəhətləri də var. İlk növbədə korroziya problemləri, ehtiyat hissələrinin qıtlığı, asqı və kardan hissələri kimi komponentlərin tez sıradan çıxması xüsusən də uzun məsafələrdə və çətin yol şəraitində sürücülərin qarşılaşdığı əsas problemlərdəndir.

**Nəqliyyat məsələləri üzrə ekspert Adil Nəbiyevin fikrincə, Çin istehsalı avtomobillərin ən təhlükəli cəhəti batareyalarıdır. “Yeni Müsavat”a açıqlamasında ekspert bildirdi ki, batareyalar avtomobilin alt hissəsində olduğu üçün yerə dəyəndə, hər hansı formada zədə aldıqda yanma ehtimalı yaranır:** “Ancaq ümumiyyətlə, avtomobillərdə yanma halları daha çox hər hansı müdaxilə ilə bağlı olur. Elektrik sisteminə müdaxilə, daha çox güc tələb edən işıqların, siqnalların qoşulması və s. yanmaya səbəb ola bilər. Avtomobilə yalnız istehsal zamanı nəzərdə tutulmuş orijinal ehtiyat hissələri qoymaq lazımdır ki, yanğın olmasın. Ölkəmizdə Çin istehsalı avtomobillərə maraq çoxdur. Sürücülər led lampalar, projektor kimi işıqlar, gizli yerlərə ucuz səs siqnalı cihazı, sayrışan işıqlar və s. əlavə avadanlıqlar əlavə edirlər ki, bu, qanun-qaydalara ziddir. Hazırda bütün dünyada Çin istehsalı avtomobillərə tələbat çoxdur. Pisləmək istəmirəm, lakin elektrik, batareya məsələsinə çox da güvənmək olmur. Demək olar ki, əksər hallarda akkumulyator zədə alan kimi yanğın başlayır, qapıların kilidlənməsi isə avtomobildən çıxmanı çətinləşdirir. Bu hal xarici ölkələrdə daha çox yaşanır. Azərbaycanda avtomobillər köhnəldikcə bu cür problemlər özünü göstərməyə başlayacaq”.



❑ **Nigar HƏSƏNLİ,**
**“Yeni Müsavat”**

# Dünya miqrantlar üçün daraldılır, Azərbaycanda isə...

**Dünyanın bir çox ölkəsində miqrantlarla bağlı vəziyyət gərginləşib. Hər yerdə sərhədlər bağlanır, qaydalar sərtləşdirilir, vizalar çətinləşir. İnsanlar isə daha yaxşı həyat arzusu ilə öz ölkələrini tərk etmək üçün hər vasitəyə əl atır. Qanunsuz yollarla, qaçaqmalçıların köməyi ilə dənizdə və ya səhralarda həyatlarını riskə ataraq.**



Birləşmiş Krallıq hökumətinin məlumatına görə, 2024-cü ildə 44 min nəfər Britaniya ərazisinə qanunsuz daxil olmağa cəhd edib. Onların çoxu Fransa sahillərindən kiçik qayıqlarla La-Manş boğazını keçməyə çalışıb. Bu rəqəm Avropada illərdir artmaqda olan qeyri-qanuni miqrasiya dalğasının miqyasını göstərir.

Amma sual yaranır: bu təhlükəli prosesin Azərbaycana təsiri varmı?

Azərbaycan uzun illərdir ki, həm miqrantların mənzil, həm də tranzit ölkəsinə çevrilib. Şərqdən, Orta Asiyadan və cənub istiqamətindən gələnlər Avropaya çıxış yolunu məhz Bakı üzərindən axtarırlar.

Rəsmi məlumatlara görə, 2023-cü ildə 6 min 300-dən çox qanunsuz miqrant ölkə ərazisində saxlanılıb, onlardan 2 min 331 nəfər deportasiya olunub. Bu il - yəni 2025-ci ilin ilk dörd ayında isə 2 min 754 nəfər qanunsuz yaşayış, qeydiyyatsız qalma və iş rejimini pozma halları ilə saxlanılıb. Dövlət Miqrasiya Xidmətinin (DMX) son statistikası göstərir ki, yalnız ilin ilk yarısında 9 min 700-dən çox inzibati qərar qəbul olunub. Bu ilin 9 ayının statistikasına görə, tənzimlənməyən miqrasiyaya qarşı mübarizə tədbirləri çərçivəsində Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi və İnzibati Xətalar Məcəlləsinin tələblərinin pozulmasına görə 17446 qərar qəbul edilib. Bu rəqəmlər “qaçaq yolla sərhədi keçənlər” qədər, ölkədə qalma müddətini pozan, sənədsiz fəaliyyət göstərən şəxsləri də əhatə edir.

Son illər Azərbaycan sərhədlərində də saxtalaşdırılmış sənədlərlə keçmək cəhdləri artıb. Dövlət Sərhəd Xidmətinin məlumatına görə, 2024-cü ildə dövlət sərhədini pozduqlarına görə 514, sərhəd rejimini pozduqlarına görə 10 500, axtarışda olan 3 726, saxta sənədlərlə 123, özgəsinə məxsus sənədlə 10, dövlət sərhədindən buraxılış məntəqələrindən gizli şəkildə keçməyə cəhd göstərən 5 nəfərin sərhədçilərin sayıqlığı nəticəsində saxlanılıb. Bu ilin oktyabrı ayında isə qanunsuz miqrasiya ilə mübarizə tədbirləri nəticəsində saxtalaşdırılmış tarix möhürü və pasportla, özgəsinə məxsus sənədlə dövlət sərhədini keçməyə cəhd göstərən 9 nəfər saxlanılıb.

Ekspertlər bildirir ki, miqrantların bir qismi Azərbaycana “iş tapmaq” məqsədilə gəlir, amma bir hissəsi ölkəni tranzit məntəqə kimi istifadə edir. Ən çox cəhdlər İran, Pakistan, Banqladeş, Hindistan və Şri-Lanka vətəndaşları tərəfindən edilir.

Belə hallarda “köməkçilər” - yəni beynəlxalq miqrant qaçaqmalçılığı şəbəkələri - əsas rol oynayır. Onlar insanları saxta sənədlərlə təmin edir, keçid marşrutlarını təşkil edir və bunun müqabilində minlərlə dollar tələb edirlər.

Niyə bu qədər adam həyatını riskə atır?

Qlobal səbəblər məlumdur: yoxsulluq, işsizlik, iqlim dəyişiklikləri, müharibələr və qeyri-sabitlik. Amma başqa bir səbəb də var - qanuni miqrasiya imkanlarının kəskin məhdudlaşdırılmasıdır. Bir çox ölkələr artıq “miqrant qəbulu” siyasətini sərtləşdirib. Bu da “arzuolunan ölkəyə” getmək istəyənlər üçün yeganə çıxış yolunu - qanunsuz keçidi saxlayır.

Beynəlxalq təcrübə göstərir ki, bu cür hallar təkcə sosial və iqtisadi səbəblərlə bağlı deyil. Qanunsuz miqrasiya həm də transmilli cinayət şəbəkələrin, insan alveri ilə məşğul olan qrupların və qaçaqmalçıların gəlir mənbəyinə çevrilib. Bir çox hallarda insanlar həyatlarını təhlükəyə ataraq, bütün var-dövlətlərini bu şəbəkələrə verirlər.

Azərbaycan da bu tendensiyadan kənarda deyil. Dövlət sərhəd orqanları mütəmadi olaraq beynəlxalq partnyorlarla əməkdaşlıq çərçivəsində qaçaqmalçılıq və qeyri-qanuni miqrasiya hallarına qarşı əməliyyatlar keçirir.

Azərbaycanda Dövlət Miqrasiya Xidməti və Daxili İşlər Nazirliyi bu sahədə nəzarəti gücləndirib. Ölkədə qanunsuz miqrantlara qarşı operativ tədbirlər keçirilir, qeydiyyatsız qalanlar aşkarlanır, cərimə və deportasiya qərarları qəbul olunur.

2024-cü ilin 9 ayı ərzində DMX tərəfindən 16 min 500-dən çox inzibati qərar verilib. Bu, rekord göstərici sayılır. Eyni zamanda Azərbaycan qanuni miqrasiya sistemini sadələşdirməyə və rəqəmsal nəzarəti artırmağa çalışır.

Əcnəbilər üçün “ASAN Viza” sistemi, elektron qeydiyyat və biometrik izləmə bu məqsədə xidmət edir.

Ekspertlərin fikrincə, qanunsuz miqrasiya təkcə təhlükəsizlik riski deyil, həm də sosial və iqtisadi yüklə nəticələnə bilər. Bir tərəfdən nəzarətsiz daxil olan şəxslərin kimliyi və məqsədi məlum olmur. Digər tərəfdən, bu insanlar çox vaxt ucuz işçi qüvvəsi kimi istismar olunur, vergidən yayınır, sosial balansı pozur.

Bu gün dünyanın hər yerində “miqrasiya böhranı” təkcə iqtisadi yox, həm də siyasi silah kimi istifadə olunur. Avropa dövlətləri öz sərhədlərini “divarlarla” qorumağa çalışır, amma insan axını dayanmaq bilmir. Azərbaycan isə bu prosesdə həm tranzit ölkə, həm də miqrantların yeni hədəfi kimi diqqət mərkəzinə düşür.

Qanunsuz miqrasiya bu gün dünyanın ortaq problemidir. Avropadan Afrikaya, Asiyadan Amerikaya qədər hər bir region bu təhdidlə üz-üzədir. Azərbaycan isə sərhəd təhlükəsizliyinə və beynəlxalq əməkdaşlığa verdiyi önəmlə regionda bu sahədə ən sabit və idarəolunan model təqdim edir.

Qeyd edək ki, Beynəlxalq Miqrasiya Təşkilatının “Missing Migrants Project” hesabatına əsasən, 2023-cü ildə 8 565 nəfər miqrasiya yollarında həyatını itirib. 2024-cü ildə bu göstərici daha da artaraq 8 938 ölüm səviyyəsinə çatıb. Ən çox ölüm halları Aralıq dənizi, Asiya və Afrika marşrutlarında qeydə alınıb.

Avropa İttifaqının (Eurostat) məlumatlarına görə, 2023-cü ildə Avropa ölkələrində 1,3 milyon qeyri-AB vətəndaşı “qanunsuz olaraq ölkədə olan” kateqoriyasına daxil edilib. Bu, əvvəlki illə müqayisədə 13 faiz artım deməkdir.

❑ **Şahanə RƏHİMLİ,**
**“Yeni Müsavat”**

# Məktəblərimizdə erməni dili tədris edilsinmi? - iki mövqe

## İlham İsmayıl: "Məktəblərimizdə erməni dilinin hətta qısa - bir və ya iki il tədrisinin belə lazım olduğunu düşünmürəm"




**Ermənistanın 3 dövlət məktəbində növbəti tədris ilindən Azərbaycan dili kursları təşkil olunacaq. 2025-2026-cı tədris ilindən etibarən həyata keçiriləcək bu təşəbbüs çərçivəsində 10-12-ci sinif şagirdləri üçün Azərbaycan və türk dilləri, 5-ci sinifdən isə fars və gürcü dilləri tədris olunacaq. Proqram könüllülük əsasında tətbiq ediləcək və onun həyata keçirilməsi ixtisaslı müəllimlərin mövcudluğundan asılı olacaq.**

Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini Fariz İsmayılzadə Modern.az-a deyib ki, Ermənistanda Azərbaycan dili fənninin tədrisi uzunmüddətli perspektivdə qarşılıqlı anlaşmanın və dialoqun möhkəmlənməsinə gətirib çıxara bilər.

Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov isə bildirib ki, Azərbaycandakı orta məktəblərdə erməni dilinin tədrisi istiqamətində addımlar atıla bilər və bu, olduqca vacibdir: "Uzun illərdir ki, Ermənistan Azərbaycanla bağlı müxtəlif layihələr həyata keçirir. Qeyd etmək lazımdır ki, Ermənistan artıq çoxdan Azərbaycanla bağlı elmi tədqiqatlar aparır, ölkəmizi öyrənir. Bu gün bizim də eyni istiqamətdə ciddi addımlar atmağımıza ehtiyac var".

Deputat həmçinin vurğulayıb ki, biz də Ermənistanı dərindən öyrənməli, onun tarixini, cəmiyyətini, siyasətini və mədəniyyətini ciddi şəkildə araşdırmalıyıq.

Azərbaycandakı orta məktəblərdə də erməni dilinin tədrisi mümkündürmü? Təhlükəsizlik baxımından nə dərəcədə önəmlidir?

Mövzu ilə bağlı keçmiş **Milli Təhlükəsizlik Nazirliyinin təqaüddə olan polkovnik-leytenantı, təhlükəsizlik məsələləri üzrə ekspert İlham İsmayıl** "Yeni Müsavat"a danışıb. Ekspert qeyd edib ki, Azərbaycanda bütün orta məktəblərdə erməni dilinin tədrisi zəruri deyil: "Erməni dilinin öyrənilməsi müəyyən situasiyalarda fəaliyyət göstərən şəxslərə və strukturlara aiddir, məsələn, Dövlət Təhlükəsizlik Xidməti, Xarici Kəşfiyyat Xidməti, Müdafiə Nazirliyi və sərhəd xəttində xidmət göstərəcək xüsusi təyinatlı şəxslər üçün. Bu kateqoriyadan olan insanların erməni dilini bilməsi perspektiv üçün vacibdir. Buna görə də erməni dilinin öyrədilməsi xarici dil kimi xüsusi və ixtisaslaşmış təlim şəklində təşkil olunmalıdır. Bəlkə bunun üçün gələcəkdə xüsusi sinif və ya ixtisaslaşmış məktəb yaradıla bilər, amma ümumilikdə tədris sistemimizdə erməni dilinin geniş tədrisini vacib hesab etmirəm.

Ümumiyyətlə, uşaqların ingilis, fransız, ərəb kimi dünyada daha çox istifadə olunan xarici dilləri öyrənməsi daha səmərəlidir və gələcək üçün daha çox perspektiv yaradır. Məktəblərimizdə erməni dilinin hətta qısa - bir və ya iki il tədrisinin belə lazım olduğunu düşünmürəm".

**İlham İsmayıl Ermənistan məktəblərində Azərbaycan dilinin tədris olunmasına isə bu cür mövqe bildirib:** "Ermənistanda bəzi dövlət məktəblərində Azərbaycan dilinin tədrisi qəbul edilə bilər və bu, normal bir addımdır. Görünən odur ki, bu, bütün məktəblərdə deyil, yalnız üç məktəbdə tətbiq edilir. Ola bilər ki, onların da məqsədi gələcəkdə sərhəddə və ya müəyyən qurumlarda istifadə üçün kadr hazırlamaqdır.

Eyni zamanda bu addımı xoş niyyət kimi də qiymətləndirmək lazımdır, perspektivdə Azərbaycan dilinin öyrənilməsi kommunikasiya və sülhə xidmət edə bilər. Hər halda, dövlətlər bu kimi məsələlərdən öz maraqları üçün istifadə edirlər. Ermənistan da bunu edə bilər və bizim də aidiyyəti qurumlarımız buna reaksiyalar verirlər.

Əgər Ermənistan bu addımı açıq və səmimi şəkildə - təxribata və ya gizli planlara xidmət etməyən, xoş niyyətli bir təşəbbüs kimi izah edirsə, biz də bununla bağlı açıq və ölçülü mövqe nümayiş etdirməli, qarşı tərəfə qarşı çox kəskin reaksiyalar göstərməkdən çəkinməliyik ki, onlara "Azərbaycan sülh istəmir" kimi bəhanə yaranmasın. Bu məsələdə bir qədər ehtiyatlı və nümunəvi davranmaq daha məqsədəuyğun olar".

❑ Xalidə GƏRAY, "Yeni Müsavat"

# Yaponlar möcüzəvi su yaratdı: iç və arıqla - diyetoloq deyir ki...

## Ləman Süleymanova: "Yalnız su içməklə yağların əriməsi elmi baxımdan mümkün deyil"

**Yaponiyanın ən böyük içki istehsalçılarından biri olan "Suntory" şirkəti qarındakı yağları azaltmağa kömək etdiyi iddia olunan xüsusi su - "Special Water" yaradıb. Bu barədə "Oddity Central" məlumat yayıb.**

İlk baxışdan məhsul adi mineral sudan heç nə ilə fərqlənmir. Bu, şəffaf, dadsız, kalorisiz, şəkərsiz və kofeinsiz bir mayedir. Bununla belə, xüsusi su Yaponiyada rəsmi olaraq "funksional qida" kimi qeydiyyata alınıb. Bu da istehsalçıya onun sağlamlıq faydalarının olduğunu iddia etməyə imkan verir.

İçkinin əsas aktiv tərkib hissəsi fermentləşdirilmiş düyü kəpəyindən əldə edilən aşağı molekulyar çəkili metabolitdir. Klinik tədqiqatlar göstərib ki, onun müntəzəm istehlakı qarın yağının paylanmasını yaxşılaşdırmağa və ürək-damar sistemi üçün ən təhlükəli yağ növü olan visseral yağı azaltmağa kömək edir.

Şirkət nümayəndələrinin sözlərinə görə, xüsusi su əsasən ofis işçiləri və oturaq həyat tərzi sürən insanlar üçün nəzərdə tutulub. Şirkət məhsulu vərdişlərdə və ya pəhrizdə köklü dəyişikliklərə ehtiyac olmadan sağlamlığı qorumaq üçün bir yol kimi təqdim edir. Tərtibatçılar əmindir ki, onun müntəzəm istehlakı qarın yağını azaltmağa kömək edəcək.




Diyetoloq bu xüsusda nə düşünür? Doğrudanmı arıqlamaq üçün belə bir suyun istehlakı kifayətdir?

Məsələ ilə bağlı **diyetoloq Ləman Süleymanova** "Yeni Müsavat"a danışaraq bildirib ki, suyun bədən üçün rolu əvəzolunmaz olsa da, onun arıqlatma təsiri yalnız dolayı şəkildə mümkündür: "İlk növbədə su barədə danışmaq istərdim. Məlum olduğu kimi, insan orqanizminin hər zaman suya böyük ehtiyacı var. Dərimizin gözəl və sağlam görünməsi, bədənin gəncliyini qoruması, hüceyrələrin normal fəaliyyəti üçün su həyati əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, elmi araşdırmalara görə, insan orqanizminin təxminən 60-70 faizi sudan ibarətdir.

Su qəbulunun artması maddələr mübadiləsini aktivləşdirir, amma təkbaşına arıqlamağa səbəb ola bilməz. Orta hesabla bir insan gün ərzində 2-2,5 litr su qəbul etməlidir. Bu, yalnız susuzluğu yatırmaq üçün deyil, həm də orqanizmin daxili sistemlərinin düzgün işləməsi üçün vacibdir. Su çatışmadıqda maddələr mübadiləsi zəifləyir, hormon balansı pozulur, bağırsaq fəaliyyəti ləngiyir. Nəticədə bədəndə toksinlər toplanır və artıq çəki yaranır".

**Ləman Süleymanovanın sözlərinə görə, suyun əsas rolu bədən sistemlərini balansda saxlamaq, toksinləri xaric etmək və hüceyrə yenilənməsini təmin etməkdir:** "Bir dəqiqə ərzində orqanizmdə 4 milyon eritrosit, yəni qırmızı qan hüceyrəsi məhv olur və elə bu qədər də yenisi yaranır. Bu prosesin normal getməsi üçün su zəruridir. Amma suyun bu funksiyası onu yağ yandıran vasitəyə çevirmir. Sadəcə, düzgün su rejimi bədənin təbii enerji sərfini artırır.

Son illər Yaponiyada və Cənubi Koreyada funksional içkilər tendensiyası geniş yayılıb. Lakin bu cür məhsulların çoxu marketinq yönümlü olur və onların iddia edilən təsirləri elmi cəhətdən tam sübuta yetirilməyib. Əgər belə bir içkinin tərkibində maddələr mübadiləsini dəstəkləyən təbii komponentlər varsa, o zaman bu, orqanizmə müəyyən qədər kömək göstərə bilər. Lakin arıqlamaq üçün hər şeydən əvvəl düzgün qidalanma və hərəkət vacibdir. Yalnız su içməklə yağların əriməsi elmi baxımdan mümkün deyil. Su həm sağlamlıq, həm də gözəllik üçün ən təbii və ucuz vasitədir, lakin "möcüzə içki" adlandırmaq doğru deyil.

Bəzən insanlar çay, qəhvə və qazlı içkiləri suyun əvəzinə qəbul edirlər. Halbuki bu içkilər əksinə, bədəndən suyun itirilməsinə səbəb olur. Ən yaxşısı təmiz su içməkdir. Xüsusilə səhər oyanandan sonra bir stəkan ılıq su içmək bədəni oyadır və toksinlərin atılmasına kömək edir".

❑ Xalidə GƏRAY, "Yeni Müsavat"



# Çində uçan maşınların yığılmasına başlandı

**Çində dünyada ilk uçan avtomobillərin seriyalı istehsalı zavodu istifadəyə verilib.**

Musavat.com xarici mediaya istinadla xəbər verir ki, Çinin Quançjou əyalətinin Huanpu rayonunda yerləşən XPENG AEROHT şirkətinin yeni istehsal kompleksi avtomobil və təyyarə funksiyalarını birləşdirən nəqliyyat vasitələrinin sınaq yığımına başlayıb. Müəssisə 120 min kvadratmetr ərazini əhatə edir və "uçan avtomobil"in ilk nüsxəsini istehsal edib.

"Xinhua" agentliyinin məlumatına görə, cihaz "ana gəmi" adlanan altı təkərli quru nəqliyyat vasitəsindən və şaquli qalxma və enmə imkanı olan ayrıla bilən elektrik uçuş modulundan ibarətdir. Aeromodul həm əllə idarəetməni, həm də ağıllı marşrut planlaşdırmasını və bir toxunuşla qalxma və enmə imkanını əhatə edən avtomatik rejimi dəstəkləyir. Nəqliyyat vasitəsinin yer hissəsi təxminən 5,5 metr uzunluğundadır. O, xüsusi sürücülük icazəsi tələb etmədən adi yollarda hərəkət edə və standart yerlərdə park edə bilər.

Zavodun layihə gücü ildə 10.000 ayrıla bilən aviasiya moduludur, ilkin mərhələdə isə 5.000 ədədə qədər istehsal planlaşdırılır. Tam gücə çatdıqdan sonra şirkət hər yarım saatda bir uçan aparat yığa biləcək ki, bu da onu bu istiqamətdə dünya liderinə çevirəcək.

Məhsulun təqdimatından bəri şirkət artıq təxminən 5000 sifariş alıb. Kütləvi istehsal və çatdırılma 2026-cı ilə planlaşdırılır.

❑ "Yeni Müsavat"

# Tərkibində dərman aşkarlandı... - energetik içkilər haqda bir daha

**Ekspert:** "Kiçiklərə və xəstələrə mənfi təsir edən bir məhsul sağlam adamlara necə müsbət təsir edə bilər?"

**Türkiyədən Azərbaycana idxal olunmuş "Paril Gida Alkoqolsuz Fonksiyonal İçecekler" müəssisəsinin istehsal etdiyi "Nitro Max" əmtəə nişanlı energetik içki məhsulu partiyalarında dərman vasitələrinin tərkibində istifadə olunan sildenafil maddəsi aşkarlanıb.**

Bu barədə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib.

Bildirilib ki, ümumi sayı 4656 ədəd olan məhsul partiyalarının (19.03.2025-19.03.2027 və 01.04.2025-01.04.2027-ci il istehsal və son istifadə tarixli) Azərbaycanın idxal tələblərinə, o cümlədən qüvvədə olan texniki və hüquqi normalara cavab verməməsi səbəbindən "Paril Gida Alkoqolsuz Fonksiyonal İçecekler" müəssisəsindən məhsul idxalına müvəqqəti məhdudiyyət tətbiq edilib. Uyğunsuzluq aşkarlanmış məhsul partiyalarının gömrük ərazisinin hüdudlarından kənara çıxarılması və ya məhv edilməsi barədə qərar qəbul edilib.

Bəs başqa energetik içkilər nə dərəcədə təhlükəsizdir? Ümumiyyətlə, belə içkilər kimlərə olmaz?

Son vaxtlar energetik içkilərin istifadəsi xüsusilə gənclər arasında artıb. Lakin bəzi hallarda bu cür məhsulların tərkibində sağlamlıq üçün təhlükəli maddələr aşkarlanır. Mütəxəssislərə görə, energetik içkilərin təhlükəsizliyi onların tərkibindən, qəbul miqdarından və içəni şəxsin sağlamlıq vəziyyətindən asılıdır. Bu içkilərin tərkibində adətən kofein, taurin, B qrupu vitaminləri və şəkər olur. Kofein əsas stimullaşdırıcı maddədir və artıq miqdarda qəbul edildikdə ürək döyüntülərinin artmasına, təzyiqin yüksəlməsinə və əsəb gərginliyinə səbəb ola bilər. Əgər bu maddələr lazım olan miqdarda istifadə olunub və məhsul qida təhlükəsizliyi testlərindən keçibsə, belə içkilər nisbətən təhlükəsiz sayılır. Lakin bəzi hallarda istehsalçılar məhsula icazəsiz stimullaşdırıcı və ya dərman maddələri əlavə edir ki, bu da ciddi sağlamlıq riski yaradır.

Energetik içkiləri uşaqlar, yeniyetmələr, hamilə və süd verən qadınlar, ürək-damar, qaraciyər, böyrək və mədə-bağırsaq xəstəlikləri olan şəxslər içməməlidirlər. Həmçinin narahatlıq, panik atak və yuxusuzluqdan əziyyət çəkənlər üçün də bu içkilər zərərlidir. Spirtli içkilərlə birlikdə energetik içki içmək xüsusilə təhlükəlidir, çünki kofein spirtin təsirini azaldır və zəhərlənmə riskini artırır.

Energetik içkiləri təhlükəsiz qəbul etmək üçün gündə maksimum bir qutu içmək, eyni gündə qəhvə və digər kofeinli içkilərlə birlikdə istifadə etməmək, idmandan əvvəl və ya sonra içməmək tövsiyə olunur. Tərkibində mənşəyi bilinməyən və ya dərman kimi səslənən maddələr olan məhsullardan uzaq durmaq, yalnız rəsmi idxal icazəsi və etiket məlumatı olan içkiləri seçmək vacibdir. Energetik içkilər bəzən diqqəti artırmaq və yorğunluğu azaltmaq məqsədilə istifadə olunsa da, onların nəzarətsiz




və mütəmadi istifadəsi sağlamlığa ciddi zərər verə bilər.

**İstehlakçıların hüquqlarının müdafiəçisi Eyyub Hüseynov mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb**: "İçkilərin etiketində hər şey açıq şəkildə yazılıb. Əslində istehsalçılar özləri etiraf edirlər ki, bu məhsullar zəif adamlara, xəstələrə və kiçik yaşlı uşaqlara zərər verir. Bəs haradadır o məntiq ki, kiçiklərə və xəstələrə mənfi təsir göstərən bir məhsul sağlam adamlara müsbət təsir göstərə bilər? Hər şey elə etiketdə aydın şəkildə qeyd olunur.

Lakin Qida Təhlükəsizliyi Agentliyi bu sahədə çox vacib bir iş görüb. Belə ki, bir müddət əvvəl enerji içkilərinin - həm yerli istehsal, həm də idxal olunan məhsulların - tərkibindəki öyrəşdirici maddələrin miqdarını minimuma endirən standart qəbul edilib. Hazırda həmin standart əsasında istehsal və idxal həyata keçirilir. Bu, çox müsbət addımdır. O dövrlərdə aşkarlanan təhlükəli və yararsız məhsullar, xüsusilə Türkiyədən gətirilən müəyyən partiyalar satışdan çıxarılıb və məhv edilib. Bu, həm istehlakçıların sağlamlığı, həm də bazarın təhlükəsizliyi baxımından vacib tədbir idi".

**Ekspert qeyd edir ki, hazırda gələcək partiyaların Azərbaycana idxalı ilə bağlı dəqiq məlumat yoxdur**: "Buna görə də istehlakçılar tərəfindən qəti fikir söyləmək doğru olmaz, çünki bazar təklif və tələbat prinsipi ilə işləyir. Bu vəziyyətdə bəzi məhsulların qiymətləri də arta bilər. Lakin əsas məsələ məktəblər, valideynlər və ailələrin bu istiqamətdə birgə fəaliyyət göstərməsidir. Onlar uşaqların belə içkilərdən mümkün qədər uzaq qalmasına çalışmalıdırlar. Biz də bu mövzuda maarifləndirmə işləri aparırıq və gənclərin sağlam seçim etməsinə dəstək veririk".

Son illərdə bir çox ölkələrdə energetik içkilərin istifadəsi ilə bağlı narahatlıqlar artdığı üçün onların satışı və reklamına müxtəlif məhdudiyyətlər qoyulub. Bu qərarların əsas səbəbi gənclər arasında bu içkilərin geniş yayılması və sağlamlığa mənfi təsir riskinin artmasıdır. Bəzi ölkələr energetik içkilərin satışını tam qadağan etməsə də, yaş məhdudiyyəti tətbiq edib. Məsələn, Litvada 2014-cü ildən etibarən 18 yaşdan aşağı şəxslərə energetik içkilərin satışı qadağandır. Latviyada da 2016-cı ildən eyni məhdudiyyət qüvvədədir və tərkibində kofein, taurin və digər stimullaşdırıcı maddələr olan içkilər yalnız böyüklərə satıla bilər. Qazaxıstanda 2025-ci ildən energetik içkilərin 21 yaşdan aşağı şəxslərə satışı qadağan edilib. Bu qərar Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsaslanaraq qəbul olunub və ölkədə gənclərin sağlamlığını qorumaq məqsədi daşıyır. Qırğızıstanda energetik içkilərin satışı tam qadağan edilməsə də, onların reklamı məhdudlaşdırılıb.

Macarıstanda da 2025-ci ildə qəbul edilən qanunla 18 yaşdan kiçik şəxslərə energetik içkilərin satışı qadağan edilib. Bu addım da ictimai sağlamlığın qorunması və uşaqların bu cür stimullaşdırıcı içkilərdən uzaq tutulması məqsədi daşıyır.

Yeni, bir çox ölkə energetik içkiləri tam qadağan etməsə də, onların satışına və reklamına ciddi nəzarət mexanizmləri tətbiq edib. Bu məhdudiyyətlər əsasən gənclərin sağlamlığını qorumağa və bu məhsulların nəzarətsiz istifadəsinin qarşısını almağa yönəlib.

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**




## Vəfat etmiş donordan ürək köçürülən şəxsin son durumu açıqlanıb

**Bakıda meyit donordan ürək köçürülən 19 yaşlı Rəşad Məmmədəliyev xəstəxanadan evə buraxılıb.**

Bunu Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiyası Mərkəzinin İdarə Heyətinin sədri Yeganə Abbasova "Report"un sualını cavablandırarkən deyib.

Onun sözlərinə görə, R.Məmmədəliyin vəziyyəti kafidir: "Pasiyent artıq Mərkəzi Klinikadan evə buraxılıb. Hələ də onun durumu nəzarətdə saxlanılır. Ayda və ildə bir dəfə orqan transplantasiyası edilmiş şəxsin vəziyyəti haqqında məlumatlar vahid informasiya sisteminə daxil olur. Bununla da onun durumu daim diqqətdə saxlanılır".



## Uşaqların dispanserizasiyasının icbari tibbi sığortaya daxil edilməsi təklif olunur

**Azərbaycanda uşaqlara dövlət tibb müəssisələrində icbari dispanserizasiyası (uşaqların sağlamlığının qorunması, normal fiziki inkişafının təmin olunması və xəstəliyin ilkin mərhələdə aşkar edilməsi məqsədilə kompleks profilaktika) xidmətinin göstərilməsinin icbari tibbi sığorta vəsaitləri hesabına maliyyələşdirilməsi təklif olunur.**

"Report" xəbər verir ki, bununla bağlı "Uşaqların icbari dispanserizasiyası haqqında" Qanuna dəyişikliklər təklif edilir.

Hazırda uşaqların icbari dispanserizasiyası dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.

Təkliflər 2026-cı ilin dövlət büdcəsi zərfinə daxil edilib.



## Ötən ay zəhərlənən 98 nəfərdən dördü ölüb

**Bu ilin oktyabr ayında Kliniki Tibbi Mərkəzin (KTM) Toksikologiya şöbəsinə ümumilikdə 98 nəfər müxtəlif mənşəli zəhərlənmə diaqnozu ilə hospitalizasiya olunub.**

Bu barədə "Report"a KTM-in mətbuat katibi Ruzbeh Məmməd məlumat verib.

Onun sözlərinə görə, vaxtında aparılan düzgün müalicə tədbirləri nəticəsində 94 pasiyentin vəziyyəti stabilləşdirilib və onlar qənaətbəxş vəziyyətdə ambulator müalicə üçün evə buraxılıblar.

Pasiyentlərin 44-ü dərman preparatlarından, 30-u sirkə turşusundan, beşi spirtli içkilərdən, beşi ilan sancmasından, üçü allergik reaksiyalardan, ikisi yandırıcı məhlullardan, biri fosfor üzvi birləşmələrindən, beşi anafilaktik şokdan, üçü isə dəm qazından zəhərlənmə səbəbi ilə müalicəyə cəlb olunub.

Üçü kişi, biri qadın olmaqla, dörd nəfərin həyatını xilas etmək mümkün olmayıb.

Ölüm hallarının əsas səbəbləri ağır dərəcəli anafilaktik şok, sirkə turşusu ilə zəhərlənmə və dərman preparatlarının yüksək dozada qəbulu nəticəsində yaranmış toksik vəziyyət olub.

YENİ MÜSAVAT

Son səhifə

N 202 (8812) 6 noyabr 2025

Noyabr

## Bunları bilirsinizmi?

* Əncir ağacının çiçəyi meyvəsinin içində olur.
* Bütün ömrünü evkalipt ağacında keçirən koala ölümünün yaxınlaşdığını hiss edəndə ağacdan torpağa enir.
* İlk teatr qədim Yunanıstanda yaranıb. O vaxtlar faciəvi rol oynayan aktyorlar kədərli, komik rol oynayan aktyorlar isə şən maska taxırdılar. Teatr rəmzi olan maskalar belə yaranıb.
* Göy qurşağı yerdən yarımdairə, təyyarədən isə dairə şəklində görünür.
* Dünyada işıqdan sürətli heç nə yoxdur. Onun sürəti saniyədə 300000 km-dir.
* Hava olmadığına görə Ayda səs yayılmır.
* Enerji yunancadan tərcümədə iş, fəaliyyət deməkdir.
* İmperator pinqvinləri suda 265 m dərinliyə baş vura bilirlər.
* İran xalqına məxsus Çehil Tulti kitabı "1001 gecə" nağılları əsasında qələmə alınmış və 40 nağıl daxil edilmişdir.
* Cins parçadan ilk dəfə gəmi yelkəni hazırlanıb.

# Yuxunun keyfiyyətinə təsir edən ağlagəlməz amil



**Çində beynəlxalq tədqiqatçılar qrupu yuxunun tənzimlənməsində bağırsaq mikrobiotasının rolunu araşdırıblar.**

Araşdırma "Brain Medicine" jurnalında dərc olunub.

Alimlər belə qənaətə gəliblər ki, bağırsaq bakteriyaları yuxu-oyanma dövrlərinə aktiv şəkildə təsir edir.

Onların fikrincə, mikrobiomun pozulması yuxusuzluq və digər xəstəliklərin inkişafına yol aça bilər.

Bağırsaq bakteriyaları immunitet sistemi və maddələr mübadiləsi vasitəsilə beyinlə qarşılıqlı əlaqə qurur.

Təhlil göstərib ki, xroniki yuxusuzluq mikrob müxtəlifliyinin və faydalı bakteriyaların sayının azalması ilə əlaqəlidir.

Elm adamları mikrobiomu yuxu pozğunluğunun müalicəsi üçün yeni bir hədəf kimi araşdırırlar.

Klinik sınaqlar göstərib ki, probiyotiklər və prebiyotiklər yuxu keyfiyyətini yaxşılaşdıra və stress səviyyələrini azalda bilər.

## İşıqda yatanlara xəbərdarlıq - ürəyi zəiflədir



**Elm adamları bildirirlər ki, tam qaranlıqda yatmaq yalnız yaxşı yuxu üçün deyil, həm də ürək sağlamlığı üçün vacibdir. Yeni araşdırmaya görə, işıq yanılı halda yatan insanlarda ürək xəstəlikləri və insult riski daha yüksək olur.**

Məlumatlara əsasən, işıq altında yatanlarda ürək çatışmazlığı riski 56 faiz, ürək damar tıxanması 32 faiz, beyin qan dövranı pozulması isə 28 faiz daha çox müşahidə olunur. Araşdırma zamanı 89 min nəfərin yuxu zamanı işığa məruz qalması öyrənilib. Nəticədə məlum olub ki, gecə işığı bədənin "bioloji saatını" pozur. Normalda bədən qaranlıqda yatmağa, işıqda isə oyaq qalmağa proqramlanıb. Bu tarazlıq pozulanda ürək və qan dövranı sisteminə zərər dəyir.

Mütəxəssislər deyirlər ki, söhbət yalnız tavan işığından getmir. Televizor, telefon və planşet kimi cihazların işığı da eyni təsiri göstərə bilər.

Yuxudan bir neçə saat əvvəl bu cihazlardan uzaq durmaq, otaqda işıqları söndürmək və pərdə və ya göz maskasından istifadə etmək tövsiyə olunur.

Araşdırma işığın birbaşa ürək xəstəliyinə səbəb olduğunu tam sübut etmir, amma çox işıq altında yatmağın orqanizm üçün zərərli olduğunu göstərir.

Elm adamlarının fikrincə, bədən gecə işığını stress kimi qəbul edir. Bu da ürək döyüntüsünü artırır, qan təzyiqini yüksəldir və iltihabı gücləndirir.

Yekunda alimlər bildirirlər ki, sağlam ürək və rahat yuxu üçün ən yaxşısı qaranlıqda yatmaqdır.

## Bu qidalar xərçəng yarada bilər - mütəxəssislər xəbərdarlıq edir

**Son illər aparılan elmi araşdırmalar sübut edir ki, gündəlik qidalanmada yer alan bəzi məhsullar uzunmüddətli dövrdə xərçəng riskini artırır.**

Mütəxəssislər düzgün olmayan qidalanma təkcə artıq çəkiyə deyil, həm də onkoloji xəstəliklərin inkişafına səbəb ola biləcəyi barəsində xəbərdarlıq edirlər.

Qidalanma üzrə mütəxəssislərin sözlərinə görə, xüsusilə emal olunmuş ət məhsulları sosiska, kolbasa, hisə verilmiş ətlər və konservləşdirilmiş qidalar bədəndə kanserogen maddələrin yığılmasına gətirib çıxarır. Bu məhsulların tərkibindəki nitrit və nitratlar yüksək temperaturda qızdırıldıqda zərərli birləşmələr əmələ gətirir.

Həmçinin şəkərli içkilər, qazlı sular və çox yağda qızardılmış qidalar da xərçəng riskini artıran əsas amillər sırasındadır. Qidada olan yüksək şəkər və trans-yağlar orqanizmdə iltihabi prosesləri gücləndirir, bu isə hüceyrələrin mutasiyasına şərait yaradır.

Mütəxəssislər bildirirlər ki, qril və ya kömürdə bişirilən ətlər də təhlükə mənbəyidir. Belə bişirmə zamanı yaranan "heterosiklik aminlər" və "polisiklik aromatik karbohidrogenlər" xərçəng əmələ gətirən kimyəvi maddələr sayılır.

Diyetoloqlar sağlam qalmaq üçün bu məhsulların qəbulunu minimuma endirməyi, menyuya daha çox təbii və antioksidant tərkibli qidalar tərəvəz, meyvə, balıq və tam taxıllar daxil etməyi tövsiyə edirlər.

"Əgər insanlar gündəlik rasionlarından emal olunmuş və süni tərkibli məhsulları azaltsalar, xərçəng riskini əhəmiyyətli dərəcədə azalda bilərlər", - deyə qidalanma üzrə ekspert qeyd edib.

Mütəxəssislərin yekdil fikrinə görə, sağlam həyatın əsası balanslı qidalanma, təbii məhsullardan istifadə və fiziki aktivlikdir.

## Zirehli parça hazırlanıb: gülləni dayandırır



**Pekin Universitetinin alimlər qrupu yeni güllələkeçirməz parça yaradıblar. Tədqiqatçıların fikrincə, bu parça öz analoqlarından üç dəfə daha möhkəmdir. Professor Cin Çjanın rəhbərlik etdiyi qrup hesab edir ki, hazırda mövcud olan ən möhkəm parçanı yaradıb. Möcüzəvi məhsul karbon nanoborular və heterosiklik aramiddən ibarət birləşmədir. Bu, materialın mövcud qoruyucu tekstillərdən daha effektiv şəkildə zərbə enerjisini udmasına və parçalamasına imkan verir. Alimlərin fikrincə, 0,6 mm qalınlığında bir parça təbəqəsi 300 m/s sürətlə hərəkət edən gülləni 220 m/s-yə qədər yavaşlada, 1,8 mm qalınlığında üç parça təbəqəsi isə gülləni tamamilə dayandıra bilər.**

## Dünyada ən dözümlü canlı müəyyən edildi



**Tədqiqatçılar Yer kürəsinin ən dözümlü heyvanını müəyyən ediblər. Onun zülalı xərçəng və ürək-damar xəstəlikləri üçün inqilabi müalicələr hazırlamağa imkan verə bilər. Su ayıları və ya mamır donuzu kimi tanınan mikroskopik canlılar inanılmaz dözümlülük nümayiş etdirirlər. Onlar qaynar suya, son dərəcə aşağı temperatura və əzici təzyiqə tab gətirə bilirlər. Bu canlılar həmçinin kosmosda sağ qala bilən yeganə heyvanlardır. Su ayıları insanın dözə biləcəyindən 2000 dəfə yüksək radiasiya səviyyələrinə tab gətirirlər.**

## Turist 60 il əvvəl oğurladığı kəlləni kilsəyə geri qaytardı



**Avstriyanın paytaxtı Vyanada yerləşən Müqəddəs Stefan kilsəsinə poçtla göndərilən gözlənilməz bağlamanın içindən insan kəlləsi çıxıb.**

Bağlamaya əlavə edilən məktubda qeyd olunub ki, Almaniyadan olan şəxs 60 il əvvəl tələbəlik illərində kilsəni ziyarət edib. Ekskursiya zamanı məbədin altındakı katakombalarda - XVIII əsrdə dəfn olunmuş minlərlə insanın qalıqları arasından bir kəlləni götürüb.

Şəxs məktubunda yazıb ki, illərlə vicdan əzabı çəkib və ömrünün sonuna yaxınlaşdığını hiss etdiyindən oğurladığı kəlləni geri qaytarmaq qərarına gəlib. Muzey əməkdaşları isə onun bu addımını alqışlayıblar və kəlləni uzun illər qoruyub saxladığı üçün təşəkkür ediblər.

Hazırda kəllənin kimə məxsus olduğu məlum deyil, lakin o, artıq yenidən dəfn olunub. Qeyd olunur ki, kilsənin altındakı katakombalarda XVIII əsrin ortalarına aid təxminən 11 min nəfərin qalıqları saxlanılır və onların arasında Vyananın tanınmış ailə üzvləri də var.

## Çində qəribə restoran: aşpazlar kunq-fu texnikasından istifadə edərək yeməklər hazırlayırlar



**Çinin Xyanyan şəhərində qəribə restoran açılıb. Burada işləyən aşpazlar qeyri-adi bacarıqlara sahibdirlər. Yemək bişirənlər bəzən kunq-fu texnikasından istifadə edirlər. Restoranın interyeri Qədim Çin bağlarına bənzədilib. Bundan əlavə, işçilərin bəziləri həmişə "Kondor Qəhrəmanlarının Əfsanəsi" filmindən kostyum geyinirlər. Məkan sahibləri yemək bişirməyi tamaşaya çeviriblər. İşçilərdən biri gözlərini yumaraq yeməklər hazırlayır. Bunun səbəbi həmin işçinin oynadığı rolda obrazının kor kimi təsvir olunmasıdır. Məlum olur ki, burada çalışan aşpazların hamısı əvvəllər teatr bacarıqları üzrə təlim keçiblər. Mətbəxdə işlədikdən sonra bəzən restoran səhnəsində çıxış edirlər.**

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

Lisenziya N: B 114
SAYI: 1.500